QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 109 (5340) 21 **iyun** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib



Səh 3


Prezident İlham Əliyev Almaniyanın keçmiş Federal Kansleri Helmut Kolun vəfatı ilə əlaqədar başsağlığı verib



2

Əsgər və zabit ailələri YAP-ın vəsaiti hesabına dincələcək



4

Qeyri-formal məşğulluğun aradan qaldırılması ilə bağlı sahibkarlarla görüş keçirilib



4

Bakıda Ümumdünya Qaçqınlar Gününə həsr olunan tədbir keçirilib



5

Trampın məktubları: ABŞ-Azərbaycan münasibətlərində yeni ümidlər



7

DSX erməni təxribatının qarşısını alıb



10

11

“Jurnalistlərin dostu” mükafatı təqdim ediləcək

Azərbaycan Mətbuat Şurası

MŞ

Azerbaijan Press Council

10

Rəsmi Moskva Ermənistanı necə məyus edib?



16

Ronaldo məhkəmə qarşısına çıxacaq



# “Helmut Kol öz xalqı qarşısında mühüm xidmətlər göstərib”

*Prezident İlham Əliyev Almaniyanın keçmiş Federal Kansleri Helmut Kolun vəfatı ilə əlaqədar başsağlığı verib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Almaniya Federativ Respublikasının ölkəmizdəki səfirliyinə gələrək Almaniyanın keçmiş Federal Kansleri Helmut Kolun vəfatı ilə əlaqədar başsağlığı verib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Almaniyanın keçmiş Federal Kansleri Helmut Kolun vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdı. Sonra Prezident İlham Əliyev Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrabla söhbət etdi.***

Dövlətimizin başçısı Helmut Kolun vəfatı ilə əlaqədar Almaniya xalqına başsağlığı verdi. Prezident İlham Əliyev vurğuladı ki, görkəmli ictimai-siyasi xadim, böyük və tarixi şəxsiyyət olan Helmut Kol öz xalqı qarşısında mühüm xidmətlər göstərib. O, Almaniyanın birləşdirilməsi və Avropa İttifaqının gücləndirilməsi istiqamətində əvəzsiz rol oynayıb. Ulu öndər Heydər Əliyev ilə Helmut Kolun Azərbaycan-Almaniya əlaqələrinin əsasını qoyduqlarını vurğulayan Prezident İlham Əliyev Heydər Əliyevin prezidentliyi dövründə ilk rəsmi səfərlərindən birini Almaniyaya etdiyini, bu səfərin və mərhum Helmut Kolla keçirilən görüşlərin ikitərəfli münasibətlərin təməlini qoyduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı Ulu Öndərin Helmut Kolla görüşlərindən xoş təəssüratları onunla bölüşdüyünü bildirdi.

Bu gün ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev əməkdaşlığımızın bir çox sahələri əhatə etdiyini bildirdi və əlaqələrimizin yaxşı perspektivə malik olduğunu qeyd etdi.

Almaniyanın Azərbaycandakı səfiri Mixael Kindsqrab başsağlığına və xoş sözlərə görə minnətdarlığını bildirdi. O, Almaniya-Azərbaycan əlaqələrinin inkişafından danışdı. Söhbət zamanı almanların Azərbaycana gəlişinin 200 illik yubileyinə hazırlıqla bağlı görüləcək tədbirlər haqqında fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkli çəkdirildi.

# Vaşinqtonun meri ABŞ Konqresində Azərbaycan və Gürcüstanla bağlı keçirilmiş tədbirin əhəmiyyətini vurğulayıb

***ABŞ Konqresinin əsas binası olan Kapitolda ABŞ-Azərbaycan Ticarət Palatasının (USACC) təşkilatçılığı və Vaşinqtonda fəaliyyət göstərən 20-dən çox qadın sahibkar və nüfuzlu təşkilat rəhbərlərinin dəstəyi ilə “Azərbaycan və Gürcüstanda qadınların cəmiyyətdə və iqtisadi inkişafda rolu” mövzusunda təşkil edilmiş tədbir münasibətilə Vaşinqton şəhərinin meri Müryel Bouzer təşkilatçılara müraciət edib.***

Məktubda bildirilir ki, Azərbaycan və Gürcüstanın müstəqilliyinin 25-ci ildönümünə təsadüf edən bu tədbir qadın sahibkarları bir araya toplamaqla onların cəmiyyətdəki rolu və töhfəsini nümayiş etdirir.

Vaşinqton meri sənəddə USACC-nin qadınların cəmiyyətimizdə və dünyada əldə etdikləri nailiyyətlərin təşviqi sahəsindəki fəaliyyətini alqışlayıb və tədbirlə bağlı uğurlar arzulayıb.

Qeyd edək ki, tədbir barədə təşəbbüs ötən ilin sentyabrında ABŞ ticarət missiyasının tərkibində Azərbaycan və Gürcüstana səfər etmiş bir qrup qadın sahibkar tərəfindən irəli sürülüb, ABŞ ticarət naziriliyi və Vaşinqtonun kiçik və yerli biznes inkişafı departamenti tərəfindən dəstəklənib. Həmçinin, tədbirin təşkili ilə bağlı ABŞ Konqresinin bir sıra qadın üzvləri, o cümlədən Şeyla Cekson Li və Brenda Lorens öz dəstəyini ifadə ediblər.

Tədbirdə Azərbaycan və Gürcüstanın sosial-iqtisadi inkişafında qadınların rolundan danışılıb, qadın hüquqlarının qorunması və gender bərabərliyi sahəsində aparılmış islahat və əldə edilmiş nailiyyətlər barədə məlumat verilib.




Greetings~
U.S. Azerbaijan - Chamber of Commerce (USACC)

June 14, 2017

As Mayor of Washington, DC, I am pleased to extend greetings to the U.S. Azerbaijan - Chamber of Commerce, for organizing the Transformation and Economic Empowerment of Women Case Studies event.

This occasion extends from the celebration of 25 years of independence of the Caspian countries, Georgia and Azerbaijan. This event brings together women entrpreneuers, decion-makers, and others from sectors for a two hour event to highlight the cobtributions of women.

I applaud the U.S. Azerbaijan - Chamber of Commerce in promoting the accomplishments that women have made in our community and around the world.

On behalf of the residents of Washington, DC, I wish you a successful event.

Muriel Bowser
Mayor, District of Columbia

***Yusif Babanlı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vaşinqton***

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib



Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş V.Quliyevin məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, Konstitusiya Məhkəməsi Plenumunun iyulun 13-nə təyin edilmiş iclasında baxılacaq.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin yaradılması haqqında Fərman imzalayıb.

***

İyunun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusunun təltif olunması barədə Sərəncamlar imzalayıb. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının Sərəncamına əsasən, dörd nəfərə “general-mayor” ali hərbi rütbəsi verilib. Həmçinin bir nəfər “Əməkdar Hüquqşünas”, bir nəfər “Əməkdar Həkim”, iki nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, 5 nəfər “Vətən uğrunda”, 6 nəfər “İgidliyə görə”, 10 nəfər isə “Hərbi xidmətlərə görə” medalları ilə təltif olunub.

# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

***İyunun 20-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.***

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı. Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müqəddəs "Qurani-Kərim"in nazil olduğu, on bir ayın sultanı mübarək Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirdi.

Mərasimdə Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandr, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete çıxış etdilər. Dövlətimizin başçısı mərasimdə nitq söylədi. Sonra iftar süfrəsi açıldı.







# Jean Asselborn: "Ötən 25 ildə Lüksemburq ilə Azərbaycan arasında əməkdaşlıq uğurla inkişaf edib"

***Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Lüksemburq Böyük Hersoqluğunun xarici işlər və immiqrasiya naziri Jean Asselborn arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə təbrik məktubu mübadiləsi həyata keçirilib.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Elmar Məmmədyarov həmkarına ünvanladığı məktubunda Azərbaycan və Lüksemburq arasında sıx əməkdaşlıq əlaqələrinin, səmərəli siyasi dialoqun bərqərar olunduğunu qeyd edib, 2015-ci ildə ölkəmizdə təşkil olunmuş birinci Avropa Oyunları zamanı Lüksemburq Böyük Hersoqu əlahəzrət Anrinin Azərbaycana səfərinin bunun bariz nümunəsi olduğunu bildirib.

Elmar Məmmədyarov 2016-cı ilin aprelində Lüksemburqda keçirilmiş XİN-lərarası məsləhətləşmələrin ikitərəfli əlaqələrdə səmərəli təcrübənin əsasını qoyduğunu, həmçinin gələcək münasibətlərin inkişafı üçün zəngin gündəlik müəyyən etdiyini diqqətə çatdırıb. Bu xüsusda, sözügedən məsləhətləşmələrin növbəti mərhələsinin 2018-ci ilin ikinci yarısında Bakıda keçiriləcəyinə ümid etdiyini vurğulayıb.



Nazir Lüksemburqun Avropa İttifaqı çərçivəsində də Azərbaycanın vacib tərəfdaşlardan biri olduğunu bildirib. Prezident İlham Əliyevin Avropa İttifaqı təsisatlarına etdiyi son səfəri zamanı danışıqlarına rəsmi başlanğıc verilmiş Azərbaycan Respublikası və Aİ arasında strateji tərəfdaşlığa dair sazişin hüquqi çərçivəni təmin etməklə, Aİ-Azərbaycan münasibətlərinin inkişafı üçün möhkəm özül yaradacağına əminliyini ifadə edib.

Lüksemburq Böyük Hersoqluğunun xarici işlər və immiqrasiya naziri Jean Asselborn Elmar Məmmədyarova ünvanladığı məktubunda Lüksemburq və Azərbaycanın ötən müddət ərzində müxtəlif sahələrdə praqmatik və uğurlu əməkdaşlığın inkişaf etdirilməsinə, iki ölkəni birləşdirən əlaqələrin gücləndirilməsinə, hər iki xalqın bir-birini tanıması prosesinin dərinləşdirilməsinə və iki dövlət arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə nail olunduğunu qeyd edib. J.Asselborn ikitərəfli münasibətlərin geniş potensialı olduğunu vurğulayıb, bu ildönümün əlaqələrin daha da yüksək səviyyəyə qalxması və iki dövlətin qarşılıqlı maraqları naminə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yeni imkanlar yaradacağına əminliyin ifadə edib. Nazir Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıb.

# Qeyri-formal məşğulluğun aradan qaldırılması ilə bağlı sahibkarlarla görüş keçirilib





***İyunun 20-də Azərbaycan Respublikasının Baş nazirinin müavini Əli Əhmədov Sumqayıt şəhərində fəaliyyət göstərən bir qrup sahibkar və iri vergiödəyicilərinin nümayəndələri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, "Qeyri-formal məşğulluğun mövcudluğuna şərait yaradan obyektiv və subyektiv şərtlər və onun aradan qaldırılması üçün təkliflər" mövzusunda baş tutan görüşdə Ə.Əhmədov bildirib ki, bu gün Azərbaycan iqtisadiyyatının sürətli inkişafı göz qarşısındadır. Ölkə iqtisadiyyatı son 12 ildə böyük inkişaf yolu keçib. Yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə qədər azalıb. Əməkhaqları 3 dəfədən çox artıb, məktəblərin, səhiyyə müəssisələrinin tikintisi həyata keçirilib. Şəhər və qəsəbələrdə böyük abadlıq işləri görülüb. Bu dövr ərzində Azərbaycanda 1 milyon 600 min iş yeri açılıb, iqtisadiyyatda 3,5 dəfə artım olub.***

Baş nazirin müavini qeyd edib ki, Azərbaycan əhalisinin 4,6 milyon nəfəri iqtisadi cəhətdən fəaldır. Bunlardan 1,5 milyon nəfəri iqtisadi fəaliyyətini rəsmiləşdirib. İqtisadi fəaliyyətini tənzimləməyən insanların isə 70-75 faizinin əmək müqaviləsi yoxdur.

"Hazırda Azərbaycanda iqtisadi sahədə köklü islahatlar nəzərdə tutulub. Bu günə qədər biz iqtisadi sahədə təbii resurslara istinad edirdik və təbii resurslardan səmərəli istifadə olunub. Lakin bundan sonra iqtisadiyyatın diversifikasiyasına, tükənməyən resurslara əsaslanaraq iqtisadiyyatın, iqtisadi inkişafın yeni mərhələsinə başlayırıq. Bu, iş adamlarının məsuliyyətini, fəallıq əmsalının yüksəldilməsini tələb edir", - deyə Ə.Əhmədov vurğulayıb.

Onun sözlərinə görə, hökuməti narahat edən məsələlərdən biri "qara mühasibatlığ"ın mövcudluğudur. 2016-cı ildə Dövlət Sosial Müdafiə Fonduna 1 milyard 921 milyon manat vəsait daxil olub ki, bunun da 1,5 milyon manatı əmək münasibətləri tənzimlənən muzdlu işçilərinin hesabına formalaşıb. Azərbaycanın əmək haqqı fondu 9 milyard manatdır. Ümumi olaraq çalışan işçilərin bir hissəsi qanunvericilik əsasında məcburi sosial ödəmələrdən azad olunduqları üçün əmək haqqı fondu 7 milyard 854 milyon manat təşkil edir. Bu məbləğdən toplanmalı olan vəsait 1 milyard 885 milyon manatdır. Ötən il toplanan vəsaitin 1 milyard 921 milyon manat olduğunu nəzərə alsaq fərq 36 milyon manatdır. Bu 36 milyon manat vəsait isə 4,6 milyon iqtisadi cəhətdən fəal olan əhalinin əmək fəaliyyəti tənzimlənməyən hissəsindən toplanıb. "Qanunla əmək fəaliyyəti tənzimlənməyən şəxslər gələcəkdə pensiya yaşına çatdıqda hüquqları pozulacaq. Bu zaman dövlət həmən şəxsləri sahibkarların üzərinə göndərəcək. Hüquqlarını bərpa etmək istəyən şəxslər isə bu məsələni məhkəmədə həll edəcək. Belə olan halda gərgin vəziyyət yaranacaq. Hökumətin istəyi ondan ibarətdir ki, sahibkarlar işə götürdükləri şəxslərin əmək hüquqlarını təmin etsinlər, gələcəkdə bu cür xoşagəlməz hallar yaşanmasın", - deyə Baş nazirin müavini Əli Əhmədov bildirib.

Sonda sahibkarların sualları dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# Əsgər və zabit ailələri YAP-ın vəsaiti hesabına dincələcək



***Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikası Silahlı Qüvvələrinə ümumxalq inamının və dəstəyinin əyani ifadəsi olaraq, ötən il həyata keçirdiyi dəstək aksiyasını bu ilin yay mövsümündə də davam etdirmək barədə qərar qəbul etmişdir. Yeni Azərbaycan Partiyasının təşəbbüsü və vəsaiti hesabına Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup əsgər və zabitinin ailə üzvləri ilə birlikdə yay istirahətinin təşkili kampaniyasına start verilmişdir.***

2016-cı ilin aprelində erməni işğalçılarının azğın təxribatlarının qarşısını igidliklə almış və düşmən həmlələrinə layiqli cavab vermiş Silahlı Qüvvələrin bir qrup əsgər və zabitinin ailə üzvləri ilə birlikdə yay istirahəti Lənkəran rayonu ərazisində yerləşən "Palıdlı sahil" istirahət mərkəzində təşkil edilmişdir. Bu kampaniya mərhələli şəkildə davam edəcəkdir.

Yeni Azərbaycan Partiyası tərəfindən atılmış bu vətənpərvər addım Azərbaycan Respublikası Silahlı Qüvvələrinə, onun əsgər və zabit heyətinə ümumxalq inamının və dəstəyinin, ordu və xalqın möhkəm birliyinin əyani ifadəsi kimi dəyərləndirilməlidir.

Dünən Yeni Azərbarcan Partiyasının maliyə dəstəyi ilə aprel döyüşlərində şəhid olan, döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların ailə üzvlərinin bir qrupu Lənkərana - "Palıdlı-Sahil" istirahət mərkəzinə yola salınmışdır.

Müdafiə Nazirliyinin nümayəndəsi yolasalma mərasimində çıxış edərək dedi ki, tədbirə dəvət olunanlar bir həftə ərzində cənub bölgəsinin gorməli yerləri ilə tanış olacaq, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı yerləri, Şəhidlər xiyabanını ziyarət edəcək, muzeylərdə olacaqlar. Tədbir təkcə istirahətlə məhdudlaşmayacaq. Astara, Lerik, Lənkəran rayonlarının sakinləri qazanılan qələbə üçün şəhid olanlarımızın, sağlamlığını itirənlərimizin ailə üzvləri ilə tanış olacaqlar ki, bu da vətənpərvərlik duyğularının daha da yüksəldilməsində vəsilə olacaqdır. Tədbirin davam etdiyi müddətdə Müdafiə Nazirliyi və "Palıdlı-Sahil" istirahət mərkəzinin birgə təşkilatçılığı ilə silsilə mədəni-kütləvi tədbirlər keçiriləcəkdir ki, bu tədbirlərin də mahiyyəti dövlətçiliklə bağlı olacaq. Belə tədbirlər ordu ilə xalq arasında münasibətlərin daha da möhkəmlənməsinə yönəldilir.

Tədbir müddətində yerli incəsənət ustaları özfəaliyyət kollektivlərinin üzvləri, eləcə də H.Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi maraqlı konsert proqramları ilə çıxışlar edəcəkdir. Istirahətə yola düşməzdən əvvəl Silahlı Qüvvərin Təlim-Tədris Mərkəzində iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi ziyarət edildi, önünə güllər qoyuldu. Hamı bir daha əmin oldu ki, heç kim unudulmur. Şəhid Tural Həşimlinin atası Əbdül Həşimli belə bir tədbirə, bu diqqətə, qayğıya görə görə təşkilatçılara minnətdarlığını bildirir. Yolasalma mərasimində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun atası Salman Qurbanov dedi:

- Mənim oğlum da Vətən naminə döyüşdü, şəhid oldu. Onun xidmət yoldaşıarının hər birini oğlum bilirəm. Inanıram ki, əsgərlərimiz yaxın vaxtlarda qazanacağı qələbə ilə şəhidlərimizin ruhunu şad edəcəklər. Həmin gün Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə oğlumun adı veriləcək postda olacam. Bu tədbirə görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

Nicat İsgəndərlinin (Tərətər), Müşviq Orucovun (Zəngilan), Zakir Cəfərlinin (Ağdam) ailə üzvləri də bu tədbirdən məmnun qaldıqlarını deyirlər.

C. Naxçıvanski adına Hərbi liseyin kursantları aprel döyüşlərində şəhid olanların, döyüşlərdə sağlamlığını itirənərin ailə üzvlərinin Lənkərana alqışlarla yola saldılar. Lənkəranda "Palıdlı-sahil" istirahət mərkəzinin bir həftəsi təkcə istirahət edənlərin deyil, tədbirin təşkilatçılarının da, istirahət edənlərlə ünsiyyətdə olanların da yaddaşından heç zaman silinməyəcək.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası 2016-cı ilin yay mövsümündə də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup əsgər və zabitinin ailə üzvləri ilə birlikdə yay istirahətini təşkili etmiş, bundan əvvəl isə dəfələrlə müxtəlif formalarda, o cümlədən xeyriyyə tədbirləri təşkil etməklə Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fonduna vəsaitlər köçürmüşdür.

## Fövqəladə hallar naziri Cəlilabadda vətəndaşları qəbul edib

İyunun 20-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov Cəlilabad şəhərində Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı və Cəlilabad rayonlarının sakinlərinin, həmçinin həmin rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, qəbul zamanı 20 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə həllini tapıb. Bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib. Bundan başqa, kadr məsələləri ilə bağlı 101, digər məsələlərlə bağlı müraciət etmiş 109 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

# Bakıda Ümumdünya Qaçqınlar Gününə həsr olunan tədbir keçirilib

## Əli Həsənov: "Əgər nəticə yoxdursa, bu qərarlar kimə lazımdır?"

***İyunun 20-də Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Dövlət Miqrasiya Xidmətinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin, ADA Universitetinin və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə Ümumdünya Qaçqınlar Gününə həsr olunan tədbir keçirilib.***

AZƏRTAC xəbər verir ki, ADA Universitetində keçirilən tədbirdə iştirakçılar əvvəlcə qaçqın və məcburi köçkün uşaqların əl işləri ilə tanış olublar. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi Furio De Angelis və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə tədbirdə açılış nitqləri ilə çıxış ediblər.

Sonra "Biz qaçqınlarla birgə dayanırıq" qlobal kampaniyası çərçivəsində hazırlanmış sosial-xidməti video nümayiş olunub.

Tədbirdə çıxış edən Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov 16 ildir ki, Ümumdünya Qaçqınlar Gününün qeyd edildiyini, ancaq onların qayıdışının qeyd olunmadığını deyib: "Dünyadakı aparıcı dövlətlər nə düşünürlər? Hegemonluq uğrunda mübarizə aparan dövlətlər dünyanı hansı vəziyyətə gətirib çıxarıblar? Azərbaycan 25 ildir ki, torpaqlarının Ermənistan tərəfindən işğalı ilə üzləşib. BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı qətnamələr, qərarlar qəbul ediblər, ancaq nəticə yoxdur".

Əli Həsənov bu gün dünyada məcburi köçkünləri hüquqi baxımdan idarə etmək üçün beynəlxalq sənəd olmadığını vurğulayaraq deyib: "Bu gün dünyada 40 milyon məcburi köçkünün hüququnu hansı sənədlə qorumaq lazımdır? Azərbaycan hər il BMT-də bu məsələni qaldırır, bizimlə razılaşırlar, ancaq belə bir sənəd qəbul olunmur. Gəlib Azərbaycan dövlətinin təcrübəsini öyrənsinlər".

Baş nazirin müavini deyib ki, bu gün dünyada 65,6 milyon insan didərgin düşüb və qaçqın, miqrant, məcburi köçkündür. Yəni, orta hesabla dünyada hər 113 nəfərdən biri didərgin düşmüş şəxsdir. Təəssüf ki, dünyada bu sahədə vəziyyət yaxşılaşmaq əvəzinə pisləşir. Təkcə Türkiyə son 3 ildə 2 milyon 900 min qaçqın qəbul edib. Dünyada özlərini hegemon sayan dövlətlər öz aralarında yeni coğrafi məkanlara, regionlara nəzarət etmək, yeni təbii sərvətlər, xüsusən enerji resursları əldə etmək üçün mübarizə aparırlar. Arada isə ərazisi kiçik, əhalisinin sayı az olan dövlətlər əziyyət çəkirlər. Bu gün dünyanın mənzərəsi budur. Son 30 ildə qaçqın, məcburi köçkün və miqrantların sayı iki dəfə, münaqişə zonalarının sayı üç dəfə artıb. Problemin həlli dünyada xalqların, dövlətlərin həmrəyliyini tələb edir.





Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Əli Həsənov bildirib ki, dünyanın bütün aidiyyəti qurumları, xüsusilə BMT-nin Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası və digərləri bu münaqişənin həlli ilə məşğuldur. Ancaq heç bir nəticə yoxdur. Əgər nəticə yoxdursa bu qərarlar kimə lazımdır?

Baş nazirin müavini qeyd edib ki, bu gün Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin yaratdığı qaçqın və məcburi köçkünlərin idarəolunma modelini - Azərbaycan modelini daha da təkmilləşdirib. Dünya dövlətləri Azərbaycanın bu təcrübəsindən yararlana bilərlər.

Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan bütün ölkələrə, dövlətlərin qəbul etdiyi sənədlərə hörmətlə yanaşır. Prezident İlham Əliyevin yürütdüyü düzgün siyasət göz qabağındadır. Avropa dövlətləri, qurumları da Azərbaycana hörmətlə yanaşmalı və qərəzli qərarlar verməməlidir. Azərbaycan tolerant ölkədir. Azərbaycanda sabitlik hökm sürür, siyasi, iqtisadi və sosial inkişaf var. Buna görə də ölkəmizə miqrant axını mövcuddur.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev çıxışında bildirib ki, bu gün qeyd olunan Ümumdünya Qaçqınlar Günü dünyada müharibələrin, etnik təmizləmələrin, terror aktlarının, milli və dini münaqişələrin dağıdıcı təsirinin artdığı dövrə təsadüf edir. Dünyanın 50-dən çox ölkəsində yaşanan münaqişələr 65 milyondan çox insanın öz ev-eşiyindən didərgin düşməsinə, müharibənin yaratdığı ağır fəlakətlərin yaşanmasına, milyonlarla insanın doğma yurd-yuvasından didərgin düşməsinə, ağır və kütləvi miqrasiya problemlərinə səbəb olub. Etnik təmizləməyə və əraziləri işğala məruz qalan ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə hazırda bir milyon iki yüz mindən artıq qaçqın və məcburi köçkün var. Azərbaycan adambaşına düşən məcburi köçkün sayına görə dünyada ən böyük didərgin yükünə sahib ölkələrdən biridir.

U.Mirzəyev qeyd edib ki, Beynəlxalq Avrasiya Mətbuat Fondu Azərbaycanın haqq səsini dünyaya çatdırmaq məqsədilə hökumət qurumları ilə və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi Furio De Angelis qeyd edib ki, 2016-cı ilin sonunda bütün dünyada zorla didərgin salınmış insanların sayı 65,6 milyon nəfər olub, bu da əvvəlki ildən 300 min nəfər çoxdur. O, didərgin düşmüş insanların 22,5 milyon nəfərinin qaçqın, 40,3 milyon nəfərinin öz ölkələri daxilində köçkün düşənlər, 2,8 milyon nəfərinin ölkələrini tərk edən və qaçqın qismində beynəlxalq himayə axtaran insanlar olduğunu diqqətə çatdırıb. O deyib ki, qaçqınlar, miqrantlar bacarıq və peşələri ilə gəldikləri ölkələrin inkişafına böyük töhfə verə bilərlər. Müharibə və terrorizmdən qaçanlarla müharibə və terrorizmi özlərinin peşələri kimi seçənlər arasında fərq böyükdür.

Furio De Angelis Azərbaycan cəmiyyətinin qonaqpərvərliyi ilə seçilən cəmiyyət olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan Dağlıq Qarabağ problemi ucbatından qaçqın və məcburi köçkün probleminə məruz qalıb. Ancaq Azərbaycan inkişaf yolu seçib. Bu gün Azərbaycan Avropada ən çox didərgin insanın olduğu ölkələrdəndir. "Biz Azərbaycanda minlərlə məcburi köçkünün mənzillə təmin edilməsini nəzərdə tutan layihəni alqışlayırıq. Mən Cocuq Mərcanlının timsalında məcburi köçkünlərin ilk qayıdışı münasibətilə Azərbaycan hökumətini təbrik edirəm", - deyə o qeyd edib. Sonda məcburi köçkün gənclərin ifasında musiqi proqramı təqdim olunub.

# Böyük Qayıdışın başlanğıcı: Cocuq Mərcanlı

*Bu, torpaqlarımızın azad olunması istiqamətində Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli və ardıcıl siyasətin məntiqi nəticəsi, Qarabağa Böyük Qayıdışın ilk müjdəsidir*



**Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ 20 ildən artıqdır ki, təcavüzkar Ermənistanın işğalı altındadır. Bu gün də Ermənistan Azərbaycan torpaqlarında barbarlıq fəaliyyəti sərgiləyir, təbii sərvətlərini talayır, flora və faunasını, mədəniyyətini dağıntılara məruz qoyur. Əlbəttə ki, Azərbaycan bu cür vəziyyətə dözə bilməz və əməli fəaliyyətində də bunu sübut edir. Sürətlə inkişaf edən Azərbaycan öncəliklə humanitar problemləri aradan qaldırır.**

Məhz Dağlıq Qarabağın işğalı nəticəsində qaçqın və məcburi köçkün düşmüş vətəndaşlarımızın həyat şəraiti yaxşılaşdırılır. Belə ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 23 ildə 6 milyard manatdan



çox vəsait sərf olunub. Ümumilikdə, indiyədək 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Bunun da 95 faizi son 13 ildə inşa edilib. Görülən işlər nəticəsində 50 min ailənin və ya 250 min nəfər qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Hazırda 80 min ailə və ya 340 min məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyac var. Bu il Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün dördmərtəbəli 34 yaşayış binasının tikintisinin başa çatdırılması nəzərdə tutulur. Artıq Abşeron rayonunun Masazır və Ramana qəsəbələrində yaşayış binalarının tikintisinə başlanılıb, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yeni yaşayış kompleksinin təməli qoyulub.

Bütün bunlarla yanaşı, Azərbaycan dövləti ordusunu gücləndirir. Çünki torpaqların işğaldan azad edilməsi üçün diplomatik imkanlar tükəndikdə, ordumuz öz sözünü deməlidir. Necə ki, 2016-cı ilin aprel ayının 2-5 tarixlərində Ermənistanın təxribatına layiqli cavab verdi və bir sıra əraziləri düşmənlərdən təmizlədi. Həmin ərazilərdən biri də Cocuq Mərcanlı kəndidir ki, bura qısa müddət ərzində, Prezident İlham Əliyevin müvafiq göstərişləri əsasında yenidən quruldu. Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan, lakin ordumuzun şücaəti sayəsində azad edilən, dövlətimizin başçısının xüsusi diqqəti sayəsində qısa müddətdə yenidən qurulan bu kənd indi öz möhtəşəmliyi ilə diqqət çəkir.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələrək, Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən Ümummilli Lider Heydər Əliyev tezliklə ölkədəki ağır vəziyyəti nəzarətə götürdü, ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atdı. Məhz Ulu Öndərin qətiyyəti və iradəsi sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bu qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kənd 2016-cı ildə Prezident İlham Əliyevin tarixi xidmətləri sayəsində ikinci həyatını yaşamağa başladı. Buna ötən ilin aprelində qəhrəman Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində nail olundu. Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. 2016-cı ilin noyabrında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda-idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən, işğal altında qalan torpaqlarımıza qayıdacağımıza bir daha əminlik yaratdı. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Bu məsələdə dövlətimizin başçısının 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazinin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsini həyata keçirdi, həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirildi.



Yenidən qurulmuş Cocuq Mərcanlıda küçələrdə işıqlandırma sistemi qurulub, su, qaz, telefon xətləri çəkilib, subartezian quyusu qazılıb, 100 kubmetrlik su anbarı inşa edilib. Yollara və səkilərə asfalt örtüyü salınıb, yaşıllaşdırma işləri aparılıb. Kənddə müasir standartlara cavab verən yeni yarımstansiya inşa edilib. Burada məktəb və Şuşa məscidinin bənzəri olan məscid tikilib. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15-də "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam da imzalayıb.

Sərəncama əsasən, Cocuq Mərcanlı kəndində tikinti-bərpa və abadlıq-quruculuq işlərinin davam etdirilməsi, o cümlədən 100 evin, uşaq bağçasının, həkim məntəqəsinin, digər zəruri sosial və infrastruktur obyektlərinin tikintisi məqsədi ilə Prezidentin Ehtiyat Fondundan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 9 milyon manat ayrılıb.

Göründüyü kimi, dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən bərpa işlərinin birinci mərhələsi artıq başa çatıb və Cocuq Mərcanlı öz sakinlərini qəbul etməyə hazırdır. Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha təsdiqləyir ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunması uğrunda son ana qədər mübarizə aparacaq. Azğın düşmənin xarabalığa çevirdiyi Cocuq Mərcanlı bu gün gözlərimiz önündə, qısa bir zamanda, bərpa olunaraq ikinci həyatına qovuşur. Bu, torpaqlarımızın azad olunması istiqamətində Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli və ardıcıl siyasətin məntiqi nəticəsi, Qarabağa Böyük Qayıdışın ilk müjdəsidir.

***"Səs" Analitik Qrupu***

# Trampın məktubları: ABŞ-Azərbaycan münasibətlərində yeni ümidlər

***Amerikanın dövlət başçısı xarici siyasətdə dəyişikliklər edəcəyi barədə seçki marafonunda vədlər vermişdi. Artıq onun bir sıra əlamətləri özünü göstərir. O cümlədən, Vaşinqtonun Azərbaycan siyasətində yeni nəfəs duyulmaqdadır. Ər-Riyadda Ərəb-İslam-Amerika sammitində də Donald Tramp dünya dövlətləri ilə münasibətlərdə həyata keçirmək istədiyi yeni prinsiplərdən söhbət açmışdı. Ayrıca, son iki həftədə Azərbaycan rəhbəri İlham Əliyevə iki məktub yazan ABŞ Prezidenti iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsində maraqlı olduğunu vurğulayıb. O, Azərbaycanın əldə etdiyi nailiyyətlərdən bəhs edib, müxtəlif sferalarda əməkdaşlığın inkişaf etdirilməsinə hazır olduqlarını bəyan edib. Ekspertlər bunu Amerika-Azərbaycan münasibətlərində yeni səhifənin açılması kimi xarakterizə ediblər. Bu məsələyə təhlili yanaşmağa ciddi ehtiyac duyulur.***



## Dəyişiklik: Vaşinqtonun düzəlişləri

Ekspertlər ABŞ-ın yeni rəhbərliyinin xarici siyasətində postsovet məkanı ölkələri istiqamətinin nə dərəcədə yer aldığını maraqla gözləyirdilər. Açığı, fərqli mövqelər ifadə olunurdu. Xüsusilə, Cənubi Qafqaz dövlətləri ilə Vaşinqtonun münasibətlərinin taleyi aktual hesab edilir. Onu vurğulayaq ki, bir sıra erməni ekspertlər elə bir ciddi arqument gətirmədən Ermənistana ayrıca önəm veriləcəyindən bəhs edirdilər. Həm də bunun fonunda Amerikanın Azərbaycanı müəyyən dərəcədə özündən uzaqlaşdıracağını iddia edirdilər.

Lakin ABŞ Prezidentinin iki həftədə Azərbaycan Prezidentinə ünvanladığı iki məktubda ifadə edilən fikirlər və Ər-Riyadda keçirilən Ərəb-İslam-Amerika sammitində D.Trampın Amerikanın xarici siyasəti ilə bağlı söylədikləri tamamilə başqa bir mənzərəni ortaya qoyur. Vaşinqton Azərbaycanla nəinki mövcud əməkdaşlığı saxlamaqda maraqlı olduğunu bəyanlayır, həm də münasibətləri inkişaf etdirməyin konkret formullarını təklif edir.

Bu bağlılıqda Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Novruz Məmmədovun jurnalistlərə müsahibəsində vurğuladığı bir fikri maraqlıdır. Novruz Məmmədov deyib: "Beynəlxalq aləmdə böyük gərginliyin olmasına baxmayaraq, düşünürük ki, Azərbaycan ilə ABŞ arasındakı münasibətlərdə yeni səhifənin açılması üçün geniş imkanlar var".

Bu fikirdə ABŞ-Azərbaycan münasibətləri üç aspektdə yığcam ifadə olunub. Birinci aspekt iki ölkə arasındakı əlaqələrin beynəlxalq aləmdə cərəyan edən proseslərdən asılı olmayaraq inkişaf etmək potensialına malik olmasını ifadə edir. Bu isə yalnız tam müstəqil və suveren dövlətlər arasında mümkün ola bilər. Yəni Vaşinqton Azərbaycanın müstəqil milli dövlət kimi formalaşdığını qəbul edir. Müstəqilliyini əldə etmiş ölkə üçün bunun əhəmiyyəti böyükdür.

İkinci aspekt ölkələrimiz arasındakı əməkdaşlığın imkanlarının geniş olmasında Prezident İlham Əliyevin yeritdiyi xarici və daxili siyasət kursunun müstəqil, reallığı tam nəzərə alan, XXI əsrin çağırışlarına cavab verə bilən olması və bütün sahələr üzrə islahatların sistemli aparılmasının həlledici rol oynaması ilə bağlıdır. Donald Tramp Azərbaycan Prezidentinə yazdığı son məktublarda həmin məqamları lakonik ifadə edir.

Amerikanın rəhbəri Azərbaycanın qlobal təhlükəsizliyə, terrorla mübarizəyə, beynəlxalq əməkdaşlıq işinə verdiyi töhfələri aydın vurğulayır, ölkə başçısının apardığı siyasətin səmərəsini qeyd edir və biznes əlaqələrini möhkəmləndirməkdə maraqlı olduğunu ayrıca vurğulayır.

Üçüncü aspekt Amerika-Azərbaycan münasibətlərinin məzmunca yeni səviyyəyə yüksəlmək şansına malik olmasından ibarətdir. Bunun əsasında, təbii ki, əvvəlki iki aspekt dayanır. Xüsusilə, Azərbaycanın xarici siyasətinin səmərəliliyi, ölkənin suverenliyini təmin edən mövqenin dayanıqlığı və həyata keçirilən islahatlar kursu ayrıca əhəmiyyət kəsb edir.

Məsələnin digər tərəfi, Novruz Məmmədovun da xüsusi vurğuladığı kimi, Vaşinqtonun xarici siyasətdə etdiyi müəyyən düzəlişlərlə əlaqəlidir. Belə ki, Ərəb-İslam-Amerika sammitində D.Tramp söylədiyi nitqdə ABŞ-ın dünya ölkələri ilə əməkdaşlıqda hansı prinsiplərə üstünlük verəcəyini ortaya qoyub. Novruz Məmmədov həmin kontekstdə ifadə edib: "Biz bu prinsipləri bəyənirik. Neçə illərdir, deyirik ki, münasibətlərdə bu prinsiplər əsas götürülməlidir. Bu prinsiplərə əməl edilsəydi, bugünkü gərginlik də olmazdı, ölkələr arasında dostluq, əməkdaşlıq, tərəfdaşlıq əlaqələri daha uğurla davam edərdi. Düşünürəm ki, belə bir perspektiv var və biz də bu perspektivlərlə bağlı lazımi addımları atırıq".

## Vədlər və reallıqlar: dialoqa aparan yolda

Vurğulanan məqamların fonunda Donald Trampın Azərbaycan Prezidentinə yazdığı məktubda ifadə etdiyi bir məqam üzərində dayanmaq zəruridir. ABŞ dövlət başçısı yazıb: "Biz Azərbaycan xalqının yanındayıq və təhlükəsizlik, iqtisadi əməkdaşlıq və demokratik prinsiplər sahəsində dialoq vasitəsilə münasibətlərimizin möhkəmləndirilməsinə sadiqik".

Bu cümlədən görünür ki, Vaşinqton Azərbaycanla bütün sahələr üzrə əməkdaşlıq etməkdə maraqlıdır. Buraya təhlükəsizlik, iqtisadi-energetik sfera, nəqliyyat və demokratik islahatlar proqramları daxildir. Təhlükəsizliyin təminində beynəlxalq terrorla mübarizə xüsusi yer tutur. D.Trampı bu məsələdə başa düşmək olar. Yaxın Şərqdə gedən proseslərdən bu, aydın görünə bilər.

Lakin terrorla mübarizə həm də Cənubi Qafqazı illərdir təhdid altında saxlayan erməni separatizmi və terroru ilə mübarizəni də mütləq şəkildə əhatə etməlidir. Təəssüf ki, həmin məqam haqqında D.Trampın məktubunda fikir yoxdur. Ancaq Vaşinqtonun nümayəndələri Ermənistan ordusunun işğal edilmiş Azərbaycan ərazisindən çıxarılmasının vacibliyini qeyd edirlər. Əslində, Amerika bu məsələyə prinsipial əhəmiyyət verməlidir.

Çünki Ermənistanın təcavüzkar siyasətinə son qoyulmasa, Cənubi Qafqazda heç bir dövlətin təhlükəsizliyini təmin etmək mümkün olmayacaq. Bu bağlılıqda D.Trampın "biz Azərbaycan xalqının yanındayıq" ifadəsi konkret məzmun kəsb etməz. Çünki erməni terroru regiona ciddi risklər gətirir və burada xalqların müstəqil inkişafına ciddi təhlükələr mövcud olaraq qalır.

Vaşinqton üçün Azərbaycanın iqtisadiyyat və enerji sahələrində həyata keçirdiyi proqramların əhəmiyyəti təhlükəsizliyin təmin edilməsi ilə birbaşa bağlıdır. Məsələ ondan ibarətdir ki, regional miqyasda təhlükəsizlik real əsaslara dayanmadıqca sabitliyi pozmaq riski yüksək olaraq qalır. O halda D.Trampın məktublarında vurğuladığı bir məqam üzərində ABŞ rəhbərliyinin özü ciddi düşünməlidir. Amerika Prezidenti yazıb: "Azərbaycan Avropa üçün yeni enerji mənbəyidir və biz bu sahədə uzunmüddətli və uğurlu əməkdaşlığımıza görə Sizə minnətdarıq. Sizin iqtisadiyyatınızı şaxələndirmək istiqamətində gördüyünüz işlərlə bərabər, biz ölkələrimiz arasında yeni faydalı biznes əlaqələrinin qurulmasını istəyirik. Amerika Birləşmiş Ştatları, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini qətiyyətlə dəstəkləyir". Yəni "Avropa üçün yeni enerji mənbəyi olan bir müstəqil dövlətlə uzunmüddətli və uğurlu əməkdaşlıq etmək" üçün mütləq regional təhlükəsizlik məsələsinə real şərtlər prizmasından baxmaq gərəkdir. Rəsmi Vaşinqtonun Cənubi Qafqaz siyasəti bu məqamı tam ödəyirmi? Təəssüf ki, ödəmir!

Belə çıxır ki, Donald Trampın Prezident İlham Əliyevə yazdığı son məktublar, eyni zamanda, Amerikanın Cənubi Qafqaz siyasətində hansı məqamlara daha çox diqqət yetirməli olduğunu ortaya qoyur. Azərbaycan səmimi və səmərəli əməkdaşlığa tam hazırdır. ABŞ-ın bunu görüb qiymətləndirməsi və yeni addımlar atması zərurət kimi dərk edilir. Donald Trampın məktubları bu bağlılıqda ciddi siqnal ola bilər.

***Newtimes.az***



# Müasir dövrün qaçqın problemi

**20 iyun tarixi BMT-nin Baş Məclisi tərəfindən təsdiq olunmuş Dünya Qaçqınlar Günüdür. Uzun illər ərzində müxtəlif regionlarda və dövlətlərdə məskunlaşmış qaçqınlar özlərinə məxsus şəkildə qaçqınlara həsr olunmuş günü qeyd edirlər. Bu mənada bunlardan ən məşhurunu - 20 iyun Afrika qaçqınlar gününü vurğulamaq xüsusi maraq kəsb edir. 2000-ci ildə BMT Baş Məclisi Afrika qaçqınları ilə həmrəy olduqlarını ifadə edən xüsusi qətnamə qəbul edib. Həmin qətnaməyə əsasən, Baş Məclis Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyasının 50-ci ilini qeyd etdi. Eyni zamanda, Afrika Birliyi Təşkilatı Dünya Qaçqınlar Gününün Afrika qaçqınlar günü ilə eyni tarixdə qeyd edilməsi barədə razılaşdı. Beləcə, 20 iyun tarixi, artıq bütün dünyada qaçqınlara qarşı hörmətin beynəlxalq səviyyəli təzahürünə çevrildi.**

Hazırda dünyada qaçqın və məcburi köçkünlərin əsas hissəsi Afrikada, Balkanlarda, Əfqanıstan münaqişə zonasında yerləşir. Son illərdə Ukraynanın şərqində baş verən silahlı münaqişələr nəticəsində Rusiyaya qaçqınların axını başlayıb. Nəticədə 700 minə yaxın qaçqın Rusiyaya axın edib. Qaçqın axını fasiləsiz olaraq Avropa ölkələrinə, ABŞ və Kanadaya doğru davam edir.

2011-ci ilin mart ayında Suriyanın cənubunda Deraa şəhərində hökumət əleyhinə etiraz aksiyalarından sonra başlayan vətəndaş müharibəsi nəticəsində milyonlarla Suriya vətəndaşının Avropa, ABŞ, Kanadaya və Türkiyəyə axını güclənib. 2016-cı ildə BMT humanitar yardıma ehtiyac olan 13.55 milyon suriyalı qaçqın müəyyənləşdirib. Bunlardan 4.8 milyonu Suriyadan kənarda yaşayan suriyalı qaçqınlarıdır. 2017-ci ilin yanvar ayında BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı 4.863.684 qeydiyyata alınmış suriyalı qaçqın olduğunu müəyyən edib. Türkiyə Suriya qaçqınlarını ən çox qəbul edən ölkələrdəndir. Buradakı qaçqınların sayı 2.7 milyon nəfərdir. Türkiyə, Suriya qaçqınlarına hələ də daha çox şərait yaradan ölkə sayılır. Belə ki, Rəcəb Tayyib Ərdoğan Ankaradakı çıxışında qaçqın düşərgələrində məskunlaşmış suriyalılara 8.5 mlrd. dollar xərcləndiyini bildirib. Avrokomissiyanın qərarına görə Latviya 776 nəfər Suriya qaçqınını qəbul etməlidir. Latviya isə qaçqınları qəbul etmək üçün onların ölkənin dili, iqlimi, mədəniyyəti, coğrafi quruluşu, ictimai nəqliyyatı, təhsil sistemi, sosial xidmətləri, məşğulluğu barədə kurs keçməli olduqlarını qeyd edib. Eyni şəkildə qaçqın axını Belçikada da müşahidə olunur. Hər ay Yaxın Şərq və Afrikadan 4000-5000 insan bu ölkəyə daxil olur. Arxiyepiskop Mexelena Brüsselya Jozef de Kesel kilsə binalarında qaçqınların yerləşdirilməsi barədə məlumat verib. Bununla belə, ölkə rəhbərliyi hazırda 23000 qaçqının girişinə qadağa qoyub.

Suriyalıların öz doğma torpaqlarından didərgin düşməsi barəsində bir çox səbəblər göstərilir. Ortaya sual çıxır, niyə məhz Suriya qaçqınlarının yaranmasına səbəb olan vətəndaş müharibəsi başladı? Səbəblər arasında əhalinin həddindən artıq yoxsul olması qeyd edilir. Lakin nəzərə almaq lazımdır ki, Suriyada yoxsulluq səviyyəsi Afrikadakı kimi deyildi, müharibəyə qədər bu ölkədə aclıq hökm sürmürdü. Suriyada yüngül sənaye, sənətkarlıq, neft sənayesi kifayət qədər inkişaf etmişdi, xaricdə yaşayan suriyalılar ölkənin valyuta ehtiyacının 10 faizini qarşılayırdı. Bəzi politoloqlar əhalinin küçələrə çıxmasının səbəbini onların azadlıq istəməsində görürlər. Dini ayrı-seçkiliyin mövcud olması da vətəndaş müharibəsinin yaranma səbəbi kimi qeyd edilir. Belə ki, ölkə əhalisnin 2/3 sunnidir, 10 faizi isə xristian və digər dinlərə sitayiş edir. Ölkə əhalisinin 12 faizini təşkil edən şiələr hakimiyyəti idarə edir. Ölkə əhalisinin köç etməsinə səbəb olan faktorlardan biri kimi, terrorizm də misal göstərilir. Dünyanın müxtəlif yerlərindən gələn terroristlər burda cəmləşiblər. Onlar arasında avropalılar, liviyalılar, qafqazlılar, Orta Asiyadan gəlmələr var. Həmçinin Suriyada sabitliyin pozulmasına təsir edən ən əsas səbəb kimi neft faktorunu irəli sürənlər də var. Konkret Suriyaya gəldikdə isə burada hər kəs əmindir ki, müharibəyə səbəb bəzi xarici böyük güclərin maraqlarıdır. Bir sıra siyasi ekspertlərin fikrincə, regionu əhatə edən bu münaqişə, əsasən, Moskva və Vaşinqton arasında gedir. Bu dövlətlərdən hansı qalib gəlsə, təbii ki, Yaxın Şərqə o nəzarət edəcək. Beləliklə, iqtisadi maraqlar zəmini ehtiva edən müharibə Suriyanın yerli əhalisinin kütləvi köçünə səbəb olur. Nəticədə Suriya qaçqınlarının dünyada məskunlaşması beynəlxalq ictimaiyyətin əsas problemlərindən birinə çevrilib.

Sadalanan bu faktların nəticəsidir ki, qaçqınlar məsələsi dünya ictimaiyyətinin əsas probleminə çevrilib. Beynəlxalq ictimaiyyət də, öz növbəsində, bu insanların vəziyyətini yüngülləşdirmək üçün səyləri gücləndirir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı hazırda bu problemi həll etmək üçün fəaliyyət göstərən mərkəzi beynəlxalq agentlikdir. Hər il beynəlxalq qaçqınlar günü müəyyən mövzuya həsr olunur. Müxtəlif illərdə müxtəlif şüarlar - "Real insanlar, real ehtiyaclar", "Ümid qığılcımlarını dəstəkləyərək" və s. kimi şüarlar səsləndirilir.

Qaçqın və məcburi köçkün problemi Azərbaycandan da yan keçməyib. 1905, 1918-1920, 1948-1953-cü illərdə Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı doğma torpaqlarından qaçmağa məcbur olub. 1988-1993-cü illərdə isə Ermənistan silahları qüvvələrinin hücumu nəticəsində həm orada, həm də Dağlıq Qarabağ və ətraf rayonlarda yaşayan 1 milyondan artıq soydaşlarımız daimi yaşayış yerindən didərgin düşüb. Qaçqın və məcburi köçkün problemi 20 ildən çoxdur ki, Azərbaycan hökumətinin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gələndən sonra dövlət qaçqın və məcburi köçkünlərə xüsusi qayğı göstərməyə başladı. Azərbaycan hökuməti qaçqınlar və məcburi köçkünlərin problemi ilə əlaqədar BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə 1992-ci ildən bəri əməkdaşlıq edir.

Cənab İlham Əliyevin isə Prezident kimi imzaladığı ilk sərəncamlarından biri 2004-cü ildə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı ilə bağlı olub. 2007-ci və 2011-ci illərdə həmin proqrama əlavələr təsdiqlənib. Dövlət Proqramına uyğun olaraq, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatına uyğun olan lazımi tədbirlər mərhələlərlə həyata keçirilir. Son 13 ildə 400 min qaçqın və məcburi köçkün işlə təmin olunub. Ölkə ərazisindəki bütün çadır düşərgələri artıq ləğv olunub və orada məskunlaşan məcburi köçkün ailələri yeni salınmış qəsəbələrə köçürülüb. Dövlət Proqramında bu istiqamətdə həyata keçirilən tədbirlərin icrası üçün bütövlükdə 6 milyard manatdan çox vəsait ayrılıb. Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirən Prezident İlham Əliyev tərəfindən 2003-2017-ci illərdə 55 fərman və sərəncam verilib. 2001-2016-cı illərdə 95 qəsəbə salınıb, 151 məktəb, 58 mədəniyyət müəssisəsi, 59 səhiyyə ocağı və digər infrastruktur obyektləri tikilib. Məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 12 faizə enib.

Birinci vitse-prezident Mehriban Əliyevanın qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı gördüyü işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Cari ilin mart ayının 9-da onun sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilib. Xanım Mehriban Əliyeva müşavirədəki çıxışında vurğulayıb ki, görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər çox məcburi köçkün ailəsi yaşayır və bu istiqamətdə işlərin sürətləndirilməsi üçün təxirəsalınmaz addımlar atılmalı olduğunu qeyd edib. Bu müşavirədən az sonra Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Bakının Qaradağ rayonunda məcburi köçkün ailələri üçün yaşayış kompleksinin təməlqoyma mərasimi keçirildi.

Beləliklə, bu gün Azərbaycanda qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlər davam etdirilir.

Sonda qeyd edək ki, 30 il əvvəl dünyada 30 milyon qaçqın və məcburi köçkün, 25 münaqişə zonası var idisə, bu gün dünyada qaçqın, məcburi köçkünlərin sayı 65 milyonu keçib və münaqişəli zonaların sayı isə 70-ə qədərdir. Doğrudur, müxtəlif dövrlərdə BMT-nin, ATƏT-in, Avropa Birliyinin bu barədə müəyyən qətnamələri, bəyanatları qəbul edilib, bununla belə, bəzən həmin sənədlər münaqişənin həqiqi səbəblərini dəqiq şəkildə qiymətləndirmir, təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında heç bir fərq qoyulmur.

Bu gün dünyadakı qaçqınların 80%-ni qadınlar və uşaqlar təşkil edir. Beynəlxalq hüquqa zidd olaraq, qaçqınların çoxu öz yurdlarına dönə bilmirlər və ya yarana biləcək çətinliklərdən dolayı, geri qayıtmaq istəmirlər. Beynəlxalq təşkilatlar mövcud problemlərin həlli istiqamətində siyasi iradə göstərə bilsələr, insanların qaçqın və məcburi köçkün olmasına səbəb olan halların aradan qaldırılmasına çalışsalar və buna nail ola bilsələr dünyada qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə yol açılar və heç bir insan öz torpağını tərk etmək məcburiyyətində qalmaz.

***Newtimes.az***

# Milli Məclis deputatının etik davranış qaydaları haqqında qanun layihəsi ikinci oxunuşda müzakirə edilib

***İyunun 20-də Milli Məclisin insan hüquqları, hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası Milli Məclis sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova açaraq "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəyə çıxarıldığını bildirib. Bahar Muradova deyib ki, qanun layihəsi yalnız deputatın etik davranış qaydalarını və ona görə məsuliyyətləri müəyyən edir. Hər bir deputat etik davranış qaydalarını rəhbər tutaraq qanun layihəsinin müddəalarına əməl etməyə borcludur.***



Qanun layihəsinin məqsədləri deputatların fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, Milli Məclisin nüfuzuna və yüksək deputat adına xələl gətirə biləcək davranışın, deputatların fəaliyyətində maraqların toqquşması hallarının qarşısının alınması, deputatın etik davranış qaydalarına əməl etməsinin təmin olunması və deputatların fəaliyyətinə ictimai etimadın gücləndirilməsidir.

İclasda diqqətə çatdırılıb ki, hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər maddəsinə əsasən deputat xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə, yaxud qəbul edə bilməz. Bu qayda xidməti vəzifələrinin qərəzsiz icrasına təsir etməmək şərtilə qonaqpərvərliklə bağlı və dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

Deputat hədiyyənin qəbul edilməsi ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə Azərbaycan Respublikası Milli Məclisinin intizam komissiyasının rəyini öyrənməli və ona uyğun davranmalıdır.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, deputat Milli Məclisin nüfuzuna və yüksək deputat adına xələl gətirə biləcək davranışa yol verməməli, deputat adını, şərəf və ləyaqətini uca tutmalıdır. Deputat vətəndaşlarla, o cümlədən seçiciləri, həmkarları, dövlət orqanlarının nümayəndələri ilə davranışında, ictimai çıxışlarında və Milli Məclisin iclaslarında nəzakətli və təmkinli olmalıdır.

İclasda qeyd olunub ki, deputat vəzifələrinin icrası ilə bir araya sığmayan sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla) məşğul olmamalıdır. Sənəddə bildirilir ki, deputatın etik davranış qaydaları haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanundan, Milli Məclisin Daxili Nizamnaməsindən, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və bu Qanuna uyğun hazırlanmış digər normativ hüquqi aktlardan ibarətdir. Müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasında tövsiyə edilib.

## Rövşən Rzayev: Azərbaycan Ermənistanın işğalçılıq siyasətinə son qoyulması yönündə mühüm diplomatik addımlar atır



"Ölkəmizin yeganə problemi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Ermənistan tərəfindən torpaqlarımızın 20 faizi işğal olunub və bunun nəticəsində 1 m ilyondan artıq vətəndaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün vəziyyətinə düşüb". Bu fikirləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Rövşən Rzayev deyib. R.Rzayev bildirib ki, Azərbaycan dövlətinin siyasətinin əsasında ölkəmizin ərazi bütövlüyünün təmin olunması dayanır. Onun sözlərinə görə, dövlətimizin həyata keçirdiyi xarici siyasətdə torpaqlarımızın işğaldan azad olunması məsələsi əsas təşkil edir.

"Həm beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətdə, həm də ayrı-ayrı dövlətlərlə ikitərəfli münasibətlər kontekstində Azərbaycan Ermənistanın işğalçılıq siyasətinə son qoyulması yönündə mühüm diplomatik addımlar atır. Məsələyə dünya təşkilatlarının münasibətinə gəlincə, reallıqlar göz önündədir. Bilirsiniz ki, bir sıra beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi haqqında qərarlar qəbul ediblər. Həmin qərarlarda Azərbaycanın ərazi bütövlüyü tanınır, münaqişənin sülh yolu ilə həllinin zəruriliyi vurğulanır. Amma təəssüflər olsun ki, həmin qərarlar icra olunmur. İşğalçı Ermənistan öz adı ilə çağırılmır və tərəflər barışığa çağırılır. Azərbaycan dövləti isə bu məsələdə öz prinsipial mövqeyini dəfələrlə bəyan edib ki, torpaqlarımızın işğalı ilə heç zaman barışmayacağıq. Azərbaycan problemin sülh yolu ilə, ədalətli həllinin tərəfdarıdır. bu problemin həlli üçün dünya dövlətləri, beynəlxalq təşkilatlar fəal olmalı, işğalçı Ermənistana qarşı beynəlxalq hüqu çərçivəsində addımlar atmalıdırlar"- deyə, R.Rzayev vurğulayıb.

## Fərhad Hacıyev: Ölkəmizdə gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib

"Gənclərlə bağlı məsələlər hər zaman dövlətin diqqət mərkəzindədir". Bu fikri Azərbaycan Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev deyib. F.Hacıyev bildirib ki, Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlət gənclər siyasətinin təməli qoyulub və bu gün bu siyasət uğurla həyata keçirilir. "Bu gün ölkəmizdə gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti bu gün gənclərin ölkə həyatının bütün sahələrindəki fəallığını daha da artırıb"- deyə, F.Hacıyev vurğulayıb.



## Qeyri-sabit hava şəraiti üç gün davam edəcək

İyunun 20-si axşamdan etibarən şimal və qərb rayonlarından başlayaraq bəzi bölgələrdə hava şəraitinin qeyri-sabit keçəcəyi gözlənilir. Şimşək çaxacaq, arabir yağış yağacaq, ayrı-ayrı yerlərdə intensiv, leysan xarakterli olacaq, dolu düşəcək. Arabir güclənən qərb küləyi əsəcək. Respublika çaylarında sululuğun artacağı ehtimal olunur. Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti Hidrometeoroloji Proqnozlar Bürosunun direktor əvəzi Gülşad Məmmədova məlumat verib. G.Məmmədova qeyri-sabit hava şəraitinin iyunun 23-ü gündüzədək davam edəcəyini bildirib. O, iyun ayında hava şəraitinin proqnozlara uyğun, gözlənildiyi kimi keçdiyini də vurğulayıb.

## Ekoloji qanunvericiliyin tələblərini pozanlar cəzalandırılıb



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin əməkdaşları tərəfindən 1-15 iyun tarixlərində ölkə ərazisində ekoloji qanunvericiliyin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə araşdırma aparılıb. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, araşdırma zamanı hüquqi və fiziki şəxslər tərəfindən atmosfer havasının, su və torpaq ehtiyatlarının, yerin təkinin, fauna və floranın mühafizəsi, o cümlədən ətraf mühitə qanunsuz məişət və istehsalat tullantılarının yerləşdirilməsi sahəsində yol verilmiş qanun pozuntularına görə 145 akt və protokol tərtib olunub, nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan 42 müddətli "məcburi göstəriş" verilib. Ümumilikdə 31 iş üzrə 36700 manat məbləğində inzibati qaydada cərimə tətbiq edilib, ətraf mühitə dəymiş ziyana görə 15 iş üzrə 5500,18manat məbləğində iddia qaldırılıb, ətraf mühitə tullantıların atılmasına və axıdılmasına görə hüquqi və fiziki şəxslərə qarşı 165 iş üzrə 37730,28 manat məbləğində ödəmə tətbiq edilib. Tədbir görülməsi üçün hüquq-mühafizə orqanlarına 20, icra qurumlarına 23, məhkəmələrə isə 5 iş göndərilib.



## "Badbaxt" müxalifət

RƏFİQƏ

***Şəxsi ambisiyalar, gerçəklik və zaman çərçivəsində seçim etməkdə acizlik edənlər niyə müxalifət düşərgəsində təmsil olunurlar? İstək və arzuların başdan yuxarı qalxdığı, müxalifət düşərgəsində nələr baş verir? Elə bu yazıda toxunacağımız məqamlar bunlarla bağlı olacaq.***

Bildirək ki, maraqlarının təmin olunması üzərində bərqərar olmaq iddiasında olan müxalifət hər məqamda sonluğa doğru yaxınlaşır. Gerçək dəyərlərdən tamamilə uzaq düşmüş, loyal prinsiplərlə idarə olunan müxalifət üçün acınacaqlı nəticə göz qabağındadır. Sadəcə olaraq, bütün olub-keçənləri bir kənara atıb birləşərək, bir mərkəz olacaqlarını bəyan edən müxalifət yetkililərinin səsləndirmiş olduqları qeyri-ciddi bəyanatlar, birmənalı şəkildə, mərkəzdənqaçma oyununa xidmət edir. Eyni zamanda, bu oyunlara transfer olunmuşlar da, hiddət və mərəzin bir addımlığındadırlar. Əsəblər tarıma çəkilib, gözlər bir neçə ünvana dikəlib, icraçılar isə öz havalarındadır.

### Bir-birinə qarşı kar olmaq, kor olmaq tendensiyaları və əl tutmamaq, salam verməmək kimi amillər...

Belə bir məntiq acı sonluqdan qaçmağın mümkünsüzlüyünü özündə ehtiva etmiş olur. Ona görə də, müxalifət düşərgəsində yuxarılar aşağıları, aşağılar da yuxarıları bəyənmədiyindən eşitmir. Bir-birinə qarşı kar olmaq, kor olmaq tendensiyalarından, əl tutmamaq, salam verməmək kimi amillərdən, sözünü "özün deyib, özün eşidirsən" formasındakı "mən səni eşitmək istəmirəm, sən danışsan da, burada bəziləri kənara işləyir" formasında oxşar replikalar yekunda alışmaqda olan barıt çəlləyi üçün bir kibrit çöpü oldu. Burada məndən çox əziyyət çəkən yoxdu, onu yuxarı başa çəkilənlər isə başqalarıdır" deyən İbrahim İbrahimli, Sülhəddin Əkbər kimilərin dalınca da, qabağınca da Müsavatdan gedənlər obrazdan çıxmağın məqamını indi seçmişdilər.

Məntiq və düşüncə, qavramaq, söz eşidib-kəlmə kəsmək insan üçün normal bir şeydir. Eyni zamanda, bütün yaradılmışların ən alisi olan insan digər canlılardan düşünüb qərar verə bilmək xüsusiyyətlərinə görə də üstün mövqedədir. Əks halda, Azər Əhmədov kimi "qidalanmaq" tendensiyası, insanlar istisna olmaqla, digər canlılara da xas olardı. "Dostunu mənə göstər, sənin kimi olduğunu deyim" atalarımız bu sözü boş-boşuna deməyiblər. Elə indi də həmin bədbəxtlik müxalifəti bürüyüb.

# Rəsmi Moskva Ermənistanı necə məyus edib?

## *İşğalçı ölkə mətbuatı, ictimai-siyasi və hərbi-siyasi dairələri anti-Rusiya havasında*

***Rusiyanın Azərbaycana müasir silah və hərbi texnika satması son günlər işğalçı Ermənistan mətbuatında, eləcə də, ictimai-siyasi dairələrində ən çox danışılan mövzulardandır. Şimal qonşumuzun vassalı olaraq Ermənistan hərbi-siyasi dairələrinin bu məsələdə ciddi şəkildə narahat olması, bir daha sübut edir ki, dalana dirənmiş işğalçı ölkə bir tərəfdən Qarabağ cəbhəsində yeni müharibənin başlayacağından, bu dəfə daha sarsıdıcı zərbələr altında qalacağından narahat olmaqla yanaşı, xalq kütləsinin iqtidara qarşı qiyama qalxacağından da təlaş keçirir.***



### Sarqis Artsruni: "Aprel müharibəsindən sonra Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin yaranması baxımından, Moskvanın regionda yürütdüyü siyasətinə yenidən baxacağı barədə qənaətə gəlmək yanlışlıq idi"

Bu arada işğalçı ölkənin aparıcı informasiya saytlarından olan 1in.am (birinci kanal) sözügedən məsələ barədə həyəcan təbili çalaraq, BMT-nin 2016-cı il qeydiyyatına əsaslanan silah təchizatı barədə yazıb. Qeyd olunub ki, ötən il Rusiya Azərbaycana 6 ədəd böyük kalibrli artilleriya qurğusu göndərib. Müəllif Sarqis Artsruninin yazdığına görə, bu, kifayət qədər dəqiq rəqəmdir və yoxlanılmış informasiyadır. Erməni analitiki bu məsələdə öz gözləntilərinin yanlış olduğunu etiraf edərək bildirib ki, onların aprel müharibəsindən sonra rəsmi Moskvanın regiondakı siyasətinə yenidən nəzər salacağı barədə ümidləri boşa çıxıb. SİTAT: "Aprel müharibəsindən sonra Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin yaranması baxımından, Moskvanın regionda yürütdüyü siyasətinə yenidən baxacağı barədə qənaətə gəlmək yanlışlıq idi. Moskva bütün mənalarda, bizim ictimai rəyimiz ətrafındakı manipulyasiya vasitələrinə çox yaxşı sahibdir və bir "İsgəndər"lə əvvəlki münasibətləri bərpa edəcəklərini bilir".

### "Söhbət böyük məbləğlərdən gedir və onu da təbii olaraq anlamaq lazımdır ki, ciddi maliyyə resurslarına ehtiyacı olan Rusiya bundan imtina edə bilməz"

Ermənilər hesab edirlər ki, rus silahlarının Azərbaycana satılması yalnız "biznes maraqları baxımından" qəbul edilməli deyil. Belə ki, Rusiya silahlarından Azərbaycanın payına 4 % düşür. "Özü-özlüyündə aydındır ki, söhbət böyük məbləğlərdən gedir və onu da, təbii olaraq, anlamaq lazımdır ki, maliyyə resurslarına ehtiyacı olan Rusiya bundan imtina edə bilməz"-deyə S.Artsruni yazır.

Bununla yanaşı, ermənilər vaxtilə qoltuğuna sığındıqları Rusiyanı "ipmeriya siyasəti" yürütməkdə ittiham edərək, bu ölkənin pulunun, kreativ ideyalarının olmadığını da yazır, lakin buna baxmayaraq, bir sıra region ölkələrini şantaj və məcburiyyət qarşısında öz təsiri altında saxladığını iddia edirlər. S.Artsruninin fikrincə, əgər silahlanma olmasa idi, Ermənistannın Moskvadan olan asılılığı az olardı və s.

Beləliklə, erməni müəllif Rusiya tərəfindən Ermənistanın "tələyə" düşürüldüyünü yazmaqla qeyd edir ki, bütün qeyd olunanlarla yanaşı, ölkənin təhlükəsizliyi də həmin "tələdədir".

### Ermənistan NATO ilə əməkdaşlığa gedə biləcəkmi?

"Ona görə ki, təhlükəsizliyimizə qarşı yaranmış mövcud vəziyyəti bizə nominal strateji müttəfiqimiz yaradıb və bu vəziyyətdən çıxmamağımız üçün bütün istiqamətləri "minalayıb". Ona görə "minalamayıb" ki, biz xarici düşmənlərdən qorunaq, əksinə, düşdüyümüz "tələdən" çıxa bilməyək..."-deyə erməni analitik qeyd edir.

Bu arada, S.Artsruni xarici siyasətdə ani hərəkətlərin də edilməsinin doğru olmadığını yazaraq bildirir ki, hazırda Ermənistan özünü KTMT-dən ayrı təsəvvür edə bilməz, çünki bu halda, heç bir alternativ təhlükəsizlik sisteminə malik olmayaraq, Rusiyanın aşkar hədəfinə çevriləcək. Müəllif bununla yanaşı, düşdükləri "tələdən" çıxmağın yolları ətrafında fikir mübadilələri aparmağın lazımlılığını deyib. Hətta iddia edib ki, Ermənistan NATO ilə əməkdaşlıq məsələsini gündəmə gətirməlidir.

Görünür, Sarqis Artsruni NATO ölkələri arasında ən güclü ordulardan birinə sahib olan Türkiyə amilini unudub və Ermənistanın bu hərbi alyansla əməkdaşlıq edəcəyinə qarşı Türkiyənin rolu barədə düşünməyib.

### Aqasi Yenkoyan: "Ermənistan rəsmi Moskvanın qərarlarına tabe olmaq məcburiyyətindədir"

Onu da qeyd edək ki, beynəlxalq münasibətlər üzrə mütəxəssis Aqasi Yenkoyan adıçəkilən erməni saytına müsahibəsində bildirib ki, "Rusiya hazırda Türkiyə və Azərbaycanla xarici siyasətini təkmilləşdirir, Ermənistan isə Rusiyanın bu qərarı ilə yanaşı, rəsmi Moskvanın digər qərarlarına da tabe olmalıdır".

Bütün bunlar isə işğalçı Ermənistanın, həqiqətən də, tələdə olduğunu sübuta yetirir və bu ölkənin yeganə çıxış yolu Azərbaycandan zəbt etdiyi Dağlıq Qarabağ torpaqlarını dərhal və qeydşərtsiz azad etməyindədir. Əks halda, bu ölkənin vəziyyəti daha dözülməz məcraya yuvarlanacaq.

***Rövşən NURƏDDİNOĞLU***

## DSX erməni təxribatının qarşısını alıb

*Araz çayının sahil xəttinə baxış keçirilərkən ağac kotüyünə bağlanmış və sərt maneə ilə toqquşduqda partlamaya hazır vəziyyətdə olan RPQ - 7 tipli tank əleyhinə əl qumbaraatanına məxsus mərmi aşkar edilib*



***Dövlət Sərhəd Xidməti hərbi qulluqçularının sayıqlığı nəticəsində Füzuli rayonu ərazisində İran İslam Respublikası ilə sərhəddə ermənilərin növbəti təxribatının qarşısı alınıb.***

Bu barədə "SƏS"ə DSX-nin mətbuat mərkəzindən məlumat daxil olub. Məlumata görə, 18 iyun 2017-ci il tarixdə saat 09:50 radələrində Füzuli rayonunun cəbhə xəttinə yaxın ərazidə yerləşən Əhmədalılar sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrini yerinə yetirən sərhəd naryadı tərəfindən Araz çayının sahil xəttinə baxış keçirilərkən, ağac kotüyünə bağlanmış və sərt maneə ilə toqquşduqda partlamaya hazır vəziyyətdə olan RPQ - 7 tipli tank əleyhinə əl qumbaraatanına məxsus mərmi aşkar edilib.

Məlumatda bildirilir ki, dərhal zəruri tədbirlər görülmüş, partlayıcı Mil-Muğan Hidroqovşağından uzaqlaşdırılaraq sahilə çıxarılmışdır. "Sərhədçilər tərəfindən qumbara mərmisinin vaxtında aşkar edilməsi sayəsində, Araz çayı üzərində yerləşən Mil-Muğan Hidroqovşağına qarşı yönəlmiş düşmən təxribatının qarşısını almaq mümkün olmuşdur. Qumbara mərmisinin aşkar olunduğu ərazi nəzarətə götürülmüş, zəruri təhlükəsizlik tədbirləri görüldükdən sonra Dövlət Sərhəd Xidmətinin istehkamçı mütəxəssisləri tərəfindən zərərsizləşdirilmişdir"-deyə DXS-nin mətbuat mərkəzi tərəfindən qeyd olunub.

***R.RƏSULOV***

# Müəllimlərin yerdəyişməsi başa çatıb

***Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin eyni rayon (şəhər) daxilində, bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişməsi başa çatıb.***




AZƏRTAC xəbər verir ki, bununla bağlı iyunun 20-də Təhsil Nazirliyində brifinq keçirilib. Tədbirdə nazirliyin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov və insan resursları şöbəsi müdirinin müavini Eşqi Bağırov iştirak ediblər.

Bildirilib ki, mayın 6-dan 30-dək müəllimlərin iş yerlərinin eyni rayon (şəhər) daxilində, iyunun 8-dən 12-dək isə onların bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişməsi üzrə elektron sənəd qəbulu aparılıb. Eyni rayon (şəhər) daxilində yerdəyişmə nəticəsində 650-dək, bir rayondan (şəhərdən) digər rayona (şəhərə) yerdəyişmə nəticəsində isə 1000-dək müəllim elektron ərizədə göstərdikləri seçimlər üzrə yerləşdirilib.

Yerdəyişmə prosesi proqram təminatı tətbiq edilməklə və sosial statusun bütün parametrləri nəzərə alınmaqla həyata keçirilib. Proqram təminatında hər bir namizəd öz sosial statusu ilə bağlı qeydlər apararaq iş yerinin dəyişdirilməsini müvafiq sənədlərlə əsaslandırıb və elektron ərizə ilə Təhsil Nazirliyinə müraciət edib. Həmin məlumatlar nazirlikdə fəaliyyət göstərən işçi qrup tərəfindən dəyərləndirilərək müvafiq qərar qəbul olunub. Bu dəyərləndirmədə müəllimlərin sosial statusu əsas götürülsə də, diaqnostik qiymətləndirmədə göstərdikləri nəticə də nəzərə alınıb. Yerdəyişmə müəllimin ailə vəziyyəti və yaxud səhhəti ilə bağlı olduqda əsas üstünlük məhz bu amilə verilib. Lakin bir neçə müəllim eyni vakant yeri göstərdikdə, bu zaman akademik göstəricilər, o cümlədən diaqnostik qiymətləndirmənin nəticələri nəzərə alınıb.

Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə iyulun 1-dən 14-dək elektron ərizələrin qəbulu həyata keçiriləcək. Müəllimlərin işə qəbulu üzrə müsabiqə dörd mərhələdə - elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi, test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə üzrə təşkil edilib.

Qeyd edilib ki, bu il vakant yerlərin toplanması yeni mexanizmə əsasən həyata keçirilir. Yerli təhsil şöbələrinin əməkdaşlarının iştirakı ilə hazırda vakant yerlərin təyin olunması üçün nazirlikdə xüsusi komissiya yaradılıb. Müəllimlərin dərs yükü, sayı və digər amillər nəzərə alınaraq vakant yerlərin sayı müəyyənləşdirilir.

# İnsan sağlamlığı dövlətimizin diqqət mərkəzindədir

***Azərbaycanın sürətli iqtisadi inkişafı, dövlət tərəfindən aparılan məqsədyönlü islahatlar, uğurla icra olunan dövlət proqramları səhiyyənin inkişafına da təsirini göstərməkdədir. Müxtəlif aspektlərdən səhiyyədə aparılan uğurlu islahatlar əhalinin sağlamlığının təminatına, onun tam şəkildə dünya standartları səviyyəsində qurulmasına istiqamətlənib. Bu məqsədlə son illər səhiyyənin maddi-texniki bazası möhkəmləndirilib. Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 500-dən çox səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilib.***



Ana və uşaqların sağlamlığının qorunması məsələsi dövlətin daim diqqəti mərkəzindədir. Bakı şəhərində Respublika Perinatal Mərkəzi, Naxçıvanda, Gəncədə, Lənkəranda, Qubada, Sabirabadda və Şəkidə regional perinatal mərkəzlər yaradılıb və müasir avadanlıqlarla təchiz edilib. Bu da respublikanın şəhər və rayonlarında keyfiyyətli perinatal xidmətlərdən istifadənin əhali arasında bərabər şəkildə bölünməsinin təmin olunmasına imkan yaradıb. Həyata keçirilən tədbirlər nəticəsində respublikada ana və körpə ölümü göstəriciləri azalıb. 2014-cü il 13 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi barədə" Sərəncamı səhiyyə sisteminin inkişafı ilə bağlı həyata keçirilən dövlət tədbirlərinin davam etdirilməsinə, əhalinin sağlamlığının daha yüksək səviyyədə qorunmasına xidmət edəcək növbəti bir addım oldu. Proqramda qeyd olunduğu kimi, bu sahədə mühüm nailiyyətlər əldə olunsa da, hələ də ana və uşaqların sağlamlığının qorunmasında problemlər qalmaqdadır.

Dövlət Proqramında mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması yolları müəyyən olunmuş, Proqramın məqsədi və vəzifələri qadın və uşaqlara göstərilən müalicə-profilaktika yardımlarının keyfiyyətinin yüksəldilməsindən, onların sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasından ibarətdir. Ananın doğum öncəsi sağlamlığının izlənilməsi və doğuş xidmətlərindən, qadın məsləhətxanalarından faydalanması yüksəldikcə, uşaq ölümü faizi də azalmaqdadır. Sevindirici haldır ki, son 15 ildə uşaq ölümü halları kəskin surətdə azalmışdır. Səhiyyəyə dövlət qayğısı sayəsində Azərbaycanın rayonlarında indi ən müasir avadanlıqlarla təchiz olunmuş səhiyyə idarələri yaradılmışdır. Doğum evlərində tibbi avadanlıqlarla təchizat və peşəkar kadrların artımı da bu gün öz sözünü deməkdədir. Tibbi maarifçiliyin gücləndirilməsi, istehlakçı hüquqlarının qorunması istiqamətində atılan addımlar, keyfiyyətsiz uşaq qidalarının bazardan çıxarılması, ana südü ilə qidalanmanın artımı sayəsində, postneonatal uşaq ölümləri azalmışdır. Belə ki, ana ölümü əmsalı hər 100 min diri doğulan 2006-cı ildə 34,2 faiz olubsa, 2013-cü ildə bu rəqəm 14,5 faiz təşkil edirdi. Bu gün isə Azərbaycan Avropa ölkələri arasında ilk onluqdadır. Bu dövlətin gördüyü tədbirlər nəticəsində mümkün olub.

Əlbəttə ki, ölkəmizdə insanların sağlamlığı dövlətin birinci dərəcəli prioritet məsələsidir. Odur ki, sağlamlığı təmin etmək üçün, ilk növbədə, səviyyəli tibbi xidmət göstərilməlidir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasəti sosialyönümlüdür. Bunun mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşları sağlam olmalıdır. Bütün bunlar ölkə Prezidentinin həyata keçirdiyi islahatlarda tətbiq olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərman və sərəncamları, ölkə səhiyyəsində islahatların aparılması və əldə olunan bütün nailiyyətlər səhiyyənin yeni bir mərhələdə inkişafına gətirib çıxarıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Buraxılış imtahanlarında 57088 şagird iştirak edəcək

***Dövlət İmtahan Mərkəzi (DİM) iyunun 23-də Xocavənd, Gəncə, Daşkəsən, Göygöl, Samux, Xızı, Mingəçevir, Naftalan, Goranboy, Şəki, Oğuz, Ağcabədi, Göyçay, Ucar, Ağdaş, İsmayıllı, İmişli, Füzuli, Beyləqan, Sabirabad, Saatlı, Lənkəran, Astara, Lerik, Masallı, Xaçmaz, Şabran və Siyəzəndə yerləşən orta ümumtəhsil müəssisələrinin buraxılış siniflərində təhsil alan ( IX və XI siniflərdə ) şagirdlər üçün mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları keçirəcək. DİM-dən SİA-ya verilən xəbərə görə, həmin gün ümumilikdə 57088 şagirdin imtahan verəcəyi nəzərdə tutulur (IX sinif ikinci mərhələ üzrə 31715, XI sinif üzrə 25373). Bu imtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə çap edib götürə bilirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası"ndan çıxarış da təqdim olunur. Burada şagirdlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır. IX sinif şagirdləri üçün imtahan saat 10:00-da, XI sinif şagirdləri üçün isə saat 15: 00-da başlanır.***



IX sinif şagirdlərinin buraxılış imtahanlarının keçirilməsi üçün ümumilikdə 83 imtahan binası ayrılıb. Həmin gün 31713 (Xocavənddə 76, Gəncədə 3266, Daşkəsəndə 274, Göygöldə 902, Samuxda 680, Xızıda 139, Mingəçevirdə 1176, Naftalanda 80, Goranboyda 1355, Şəkidə 1970, Oğuzda 568, Ağcabədidə 1712, Göyçayda 1262, Ucarda 870, Ağdaşda 1249, İsmayıllıda 1033, İmişlidə 1193, Füzulidə 788, Beyləqanda 1078, Sabirabadda 1749, Saatlıda 1021, Lənkəranda 2169, Astarada 1180, Lerikdə 661, Masallıda 2105, Xaçmazda 2007, Şabranda 672, Siyəzəndə 480 ) nəfər 9-cu sinif şagirdinin imtahanda iştirakı nəzərdə tutulur. XI siniflərdə təhsil alan şagirdlərin buraxılış imtahanlarının keçirilməsi üçün 83 imtahan binası ayrılıb. Həmin gün 25373 (Xocavənddə 53, Gəncədə 2560, Daşkəsəndə 243, Göygöldə 754, Samuxda 515, Xızıda 93, Mingəçevirdə 998, Naftalanda 62, Goranboyda 1072, Şəkidə 1770, Oğuzda 526, Ağcabədidə 1481, Göyçayda 904 Ucarda 632, Ağdaşda 903, İsmayıllıda 804, İmişlidə 1064, Füzulidə 649, Beyləqanda 832, Sabirabadda 1755, Saatlıda 719, Lənkəranda 1783, Astarada 825, Lerikdə 492, Masallıda 1536, Xaçmazda 1473, Şabranda 509, Siyəzəndə 366 ) nəfər 11-ci sinif şagirdinin imtahanda iştirakı nəzərdə tutulur. İmtahanların idarə olunmasına ümumilikdə 224 imtahan rəhbəri, 2778 nəzarətçi-müəllim ayrılıb. Hal-hazırda imtahan keçiriləcək şəhərlərdə imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. İmtahan mərkəzlərinə təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahandan bir gün əvvəl DİM əməkdaşlarının iştirakı ilə növbəti baxış keçiriləcək və bütün imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarına mühafizə üçün təhvil veriləcək.

# "Jurnalistlərin dostu" mükafatı təqdim ediləcək

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

Azərbaycan Mətbuat Şurası və "Ruh" Jurnalistlərin Müdafiəsi İctimai Birliyi 2017-ci ildə "Jurnalistlərin dostu" mükafatının təqdimatı üçün iyunun 20-dən iyulun 15-dək kütləvi informasiya vasitələri arasında sorğu elan edir. Bu məqsədlə Mətbuat Şurası tərəfindən müvafiq işçi qrupu yaradılıb. Şuradan AZƏRTAC-a bildiriblər ki, mükafatın laureatını ölkənin tanınan, ictimai fikrə təsir göstərən televiziya, radio, qəzet, jurnal, informasiya agentliyi, internet informasiya resursu və jurnalist təşkilatlarının nümayəndələri müəyyənləşdirəcəklər.

Mətbuat Şurası sorğuda iştirak edəcək KİV-lərə müvafiq anketləri təqdim edəcək. Anketlər iyulun 15-dək cavablandırılmalı və Mətbuat Şurasına təqdim olunmalıdır. İyulun 15-dən 20-dək cavablar öyrəniləcək və sorğunun qalibi müəyyən ediləcək. Mükafatın laureatının adı iyulun 22-də Milli Mətbuat Günü açıqlanacaq.

Qeyd edək ki, "Jurnalistlərin dostu" mükafatı 1998-ci ildə "RUH" Azərbaycan Jurnalistlərinin Müdafiəsi Komitəsi (hazırkı "Ruh" Jurnalistlərin Müdafiəsi ictimai birliyi) tərəfindən təsis edilib. Mükafatın təsis edilməsində məqsəd cəmiyyətdə söz və məlumat azadlığını təbliğ və inkişaf etdirmək, media ilə dövlət qurumlarının, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin və siyasi partiyaların əlaqələrinin möhkəmləndirilməsinə kömək göstərmək, kütləvi informasiya vasitələrinə qayğı ənənələrini stimullaşdırmaqdır.

# Bakıda Çinin Çendu şəhərinin nümayəndə heyəti ilə görüş keçirilib




"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində Çendu beynəlxalq dəmir yolu MMC-nin baş direktor müavini Zhahg Jingin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. "Azərbaycan Dəmir Yolları" QSC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən məlumata görə, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov çıxış edərək, Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı, "Şimal-Cənub" və Cənub-Qərb nəqliyyat dəhlizləri, Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu ("Orta Dəhliz"), Azərbaycanın nəqliyyat-logistika imkanları barədə ətraflı məlumat verib. Cavid Qurbanov bildirib ki, Azərbaycan üzərindən yüklərin daşınmasının effektivliyini və rəqabətqabiliyyətliliyini artırmaq üçün bütün imkanlar səfərbər olunub. Cəmiyyət sədri Azərbaycanın Çin tərəfinə yüklərin Azərbaycan üzərindən daşınmasına hər cür dəstək göstərməyə hazır olduqlarını bildirib. Görüşdə həmçinin iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində qarşıda duran işlər müzakirə olunub. Çendu beynəlxalq dəmir yolu MMC-nin baş direktor müavini Zhahg Jing çıxış edərək, Çin məhsullarının Şərqi Avropaya, Yaxın Şərq ölkələrinə, habelə Türkiyə və Gürcüstana çatdırılması üçün Azərbaycandan keçən nəqliyyat dəhlizlərindən yararlanmaqda maraqlı olduqlarını bildirib.

# Ermənistan mətbuatı nə yazır?

## *İşğalçı ölkədə vəziyyət gərginlik həddini aşır*

***Ermənistan mətbuatı ölkədə gedən ağır iqtisadi, siyasi proseslər barədə yazmaqda davam edir. Məmur özbaşınalıqlarından tutmuş cəbhə xəbərlərinədək verilən hər bir informasiya Ermənistanın faktiki vəziyyətinin necəliyini bir daha sübuta yetirir.***

Ümumiyyətlə, görünən budur ki, işğalçı ölkədə vəziyyət gərginlik həddini aşır... "Yolların bağlanması, qəzəbli və etirazçı xalqın, az-çox effekt verən yeganə vasitəsi kimi qalmaqdadır. Əlbəttə, bu, o demək deyil ki, qaldırılan problemlər həll edilir". Bu barədə Ermənistanın 1in.am saytı yazır. Hakimiyyət orqanlarının sadə xalqın ən kiçik problemlərini belə həll etmək marağında olmadığını yazan saytın məlumatına görə, ən azından, ortaya çıxarılan problemlər ictimaiyyət arasında müzakirələrə səbəb olmaqla yanaşı, yolları bağlanan məmurların məcburi şəkildə etirazçılarla qarşılaşmalarına şərait yaradır: "Bütün bunlara baxmayaraq, hətta yerli icra strukturları tərəfindən operativ həll olunması mümkün olan problemləri belə həll etməyən hakimiyyət baş verənlərdən ibrət götürmür və davamlı olaraq ictimaiyyətin ədalətli olmaq çağırışlarını qulaqardına vurur".



### "Hraparak: "Deputat Murad Muradyan narkotiklərlə bağlı Belarusda həbs olunmuş oğlu Nver Muradyanı azad edə bilməyib"

Bu arada "Haraparak" nəşri yazır ki, bu günlərdə sabiq ətraf mühitin mühafizəsi naziri, parlamentin 6-cı çağırış deputatı Murad Muradyanın oğlu Nver Muradyan əlində olan narkotiklərlə birgə həbs olunub. Belə ki, əvvəlcə onun Soçidə, sonra isə Belarusda saxlanıldığı bildirilir: "Ata (Murad Muradyan) Belarusa gedib və bir ay baş verən məsələni həll etməyə çalışıb ki, oğlunu azad etsin, lakin hələ də geri qayıtmayıb".

"Bizim əldə etdiyimiz məlumata görə, Nver Muradyan hələ də həbsdə qalmaqdadır və məhkəməsinə başlanılmayıb".

### Ermənistanın internet TV kanalı: "Azərbaycan Ordusu ermənilərin ən dərin arxa cəbhəsində yerləşdirilən hərbi texnikalarını belə məhv edir"

"Cəbhəyəni bölgədə yaşayan bizlər görürük ki, 2014-cü ildən başlayaraq, ordumuz böyük təhlükə altında qalıb". Bu haqda "DQR"in saxta parlamentinin keçmiş deputatı Vahan Badasyan Ermənistanın internet televiziyası olan 1-ci kanalına müsahibəsində bildirib. Onun sözlərinə görə, yaxın günlərdə təmas xəttində ciddi fəallıqlar olacaq. Badasyan etiraf edib ki, Azərbaycan Ordusu ermənilərin ən dərin arxa cəbhəsində yerləşdirilən hərbi texnikaları belə məhv edir: "Bəllidir ki, situasiya dəyişir. Aprel döyüşlərinə 7-8 gün qalmış onlar (Azərbaycan tərəfi), faktiki olaraq, bizim arxa cəbhəmizdə hərbi texnikalarımızı məhv etdilər. Bunun ardınca isə, aprel hadisələri baş verdi. Bu gün həmin halların yenidən baş verməsi təhlükəsi artamaqda davam edir".

***Rövşən RƏSULOV***



# Peşəkar kadrların hazırlanması keyfiyyətli təhsildən keçir

## *Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının təşkilatçılığı ilə ATU-da imtahanların gedişatına ictimai baxış keçirilib*

Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının təşkilatçılığı ilə ATU-da imtahanların gedişatına ictimai baxış keçirilib. İctimai baxış 2016-2017-ci tədris ilinin yay imtahan sessiyasında şəffaflığın və obyektivliyin təmin edilməsinin izlənilməsi məqsədilə İNMŞ-nin iclasının qərarına əsasən təşkil edilib. İctimai baxış zamanı şura üzvlərinə məlum olub ki, ATU-da təhsil alan tələbələrin - gələcəyin həkim və əczaçıları olacaq gənclərin biliklərinin düzgün, obyektiv qiymətləndirilməsi və şəffaflığın təmin edilməsi üçün imtahanlar mərkəzləşdirilmiş qaydada, universitetin virtual test mərkəzində, kompyuterlər vasitəsilə test üsulu ilə həyata keçirilir.

ATU-nun rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının sədri, Milli Məclisin deputatı İlham Məmmədov, şuranın sədr müavini, ATU-nun müəllimi və "Gənc vətəndaş" İB-nin sədr müavini Aidə Bəndəliyeva, şuranın üzvləri - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni, "İki sahil" qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, QHT-lərin Antikorrupsiya Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli, ATU-nun Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Məhərrəm Amilli buraxılış işlərinin müdafiəsində də iştirak edərək həm müdafiənin gedişi, həm də müdafiə komissiyasının işi ilə yaxından tanış olublar.

ATU-nun rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının sədri və şura üzvləri keçirdikləri ictimai baxış zamanı universitetin kollektivi ilə yaxından tanış olublar və onlara öz tövsiyələrini verməklə yanaşı, ATU-da imtahan sessiyasının mövcud normativ sənədlər əsasında təşkil olunmasını müşahidə ediblər. Bununla yanaşı, şuranın sədri, Milli Məclisin deputatı İlham Məmmədov gələcəkdə universitetdə yenicə fəaliyyətə başlamış İctimai Nəzarət və Məsləhət Şurasının müvafiq qərargahının yaradılmasının, xüsusi rəy qutularının yerləşdirilməsinin zəruriliyini vurğulayıb. Bildirib ki, bunları yaratmaqda məqsəd gələcəkdə həm imtahanların gedişində, həm də universitetin fəaliyyətində obyektivliyi və şəffaflığı daha da təmin etmək, qərargahın fəaliyyəti barədə müəllim, tələbə və valideynlərə, həmçinin, ictimaiyyət nümayəndələrinə mütəmadi məlumat verməkdir.

# Hadi Rəcəbli: Respublikamız İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir



***"Hazırda islamofobiya dünyada ən ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qəti şəkildə pisləyirik. İslamı terrorla əlaqələndirmək yanlış və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən məhz müsəlman dövlətləridir. Biz sülh, mərhəmət, dözümlülük və ədalət dini olan İslamın dəyərlərinin təşviqini davam etdirməliyik". Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib.***

H.Rəcəbli bildirib ki, belə vəziyyətdə İslam dövlətlərinin həmrəylik nümayiş etdirməsi olduqca vacibdir. Bu mənada Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam həmrəyliyi ili" elan etməsi ölkəmizin müsəlman aləminin birliyi üçün nümayiş etdirdiyi mühüm siyasi iradənin göstəricisidir. "Prezident İlham Əliyev 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməklə həm də müxtəlif xalqların, o cümlədən müsəlmanların müharibələrdən əziyyət çəkdiyi, fəlakətlərə düçar edildiyi indiki dövrdə dünyaya mesaj verdi. Bütün dünyaya göstərildi ki, müsəlman həmrəyliyi Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Beləliklə, qlobal miqyasda sülhə və əməkdaşlığa, sivilizasiyalararası dialoqa böyük töhfə verən Azərbaycan bu sahədə yeni fəaliyyət mərhələsinə qədəm qoyur. Respublikamız İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir. Təbii ki, ölkəmiz qarşısına qoyduğu məqsədləri bu illə yekunlaşdırmayacaq və növbəti dövrdə də bu xətt davam etdiriləcək. Bu gün Azərbaycanın gücü, nüfuzu və imkanları, o cümlədən mövcud potensialı və beynəlxalq ictimaiyyətin ölkəmizə etimadı İslam həmrəyliyinə nail olunması kimi mühüm missiyanı üzərinə götürməyə imkan verir. Əminik ki, ölkəmiz bu missiyanı da layiqincə həyata keçirəcək, görüləcək işlər İslam dünyasının həmrəyliyinə böyük töhfələr verəcək"- deyə, komitə sədri vurğulayıb.

# AZAL dörd "B787-Dreamliner" təyyarəsi almaq niyyətindədir

İyunun 20-də "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti Paris aviasalonunda təxminən 918 milyon dollar həcmində qiymətləndirilən dörd "Boeing 787-8 Dreamliner" təyyarəsi almaq niyyətini elan edib.



"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təyyarələrin sifarişi və tədarük tarixləri barədə məlumat tamamilə təsdiqləndikdən sonra "Boeing" Korporasiyasının rəsmi saytında yerləşdiriləcək. "Yeni "787-Dreamliner" təyyarələrinin sifarişi barədə qərar "Azərbaycan Hava Yolları"na gələcək inkişaf üçün böyük imkanlar açır. MDB məkanında aparıcı aviadaşıyıcılardan biri olaraq, müasir "Boeing -787" təyyarələrinin bizə təqdim etdiyi imkanlar sayəsində marşrut şəbəkəmizin genişləndirilməsini səbirsizliklə gözləyirik", - deyə AZAL-ın prezidenti Cahangir Əsgərov bildirib.

"Bugünkü saziş Azərbaycan Hava Yolları ilə tərəfdaşlığımızda yeni səhifə açır", - "Boeing" Korporasiyasının Yaxın Şərq, Türkiyə, Rusiya və Mərkəzi Asiyada satış məsələləri üzrə vitse-prezidenti Marti Bentrott bildirib. "Biz əminik ki, bazarda lider olan "B787-Dreamliner" sərnişin təyyarələrinin səmərəliliyi və rahatlığı AZAL-ın aviaparkının müasirləşdirilməsi planlarına müvəffəqiyyətlə kömək edəcək".

"Azərbaycan Hava Yolları" böyük aviadaşıyıcı və MDB ölkələrinin aviasiya icmasının liderlərindən biridir. Aviaşirkətin ümumi marşrut şəbəkəsi 25 ölkədə 40 istiqamətdən ibarətdir. 2016-cı ildə "Azərbaycan Hava Yolları" 2 milyondan çox sərnişin daşıyıb. AZAL 25 hava gəmisindən ibarət ən yeni təyyarə parkına malikdir. Hazırda aviaşirkətin donanmasına iki "Boeing -787-Dreamliner" təyyarəsi, həmçinin "Boeing -767" və "Boeing -757" təyyarələri daxildir.

# Astanada I Azərbaycan-Qazaxıstan turizm forumu keçiriləcək

Qazaxıstanın paytaxtı Astana şəhərində iyunun 28-də I Azərbaycan-Qazaxıstan turizm forumu keçiriləcək. Azərbaycanın Qazaxıstandakı səfirliyi, Qazaxıstanda fəaliyyət göstərən Azərbaycanlı Sahibkarlar İttifaqının dəstəyi ilə keçirilən forumda Azərbaycan və Qazaxıstan turizm potensialının təqdimatı, turoperatorların, turizm şirkətlərinin nümayəndələrinin işgüzar görüşləri, turizm agentlikləri üçün işçi platforma, iştirakçılar üçün "B2B" (üzbəüz) görüşlər təşkil ediləcək. Forumun keçirilməsində əsas məqsəd hər iki ölkədə fəaliyyət göstərən turizm şirkətlərinin təşkil etdikləri müalicə və istirahət mərkəzlərinə turların təbliği və turistlərin cəlb edilməsidir.

SİYASİ RAKURS

# Anar Məmmədlinin 60 min avrosunu kim "atıb"?

## *Yaxud "əqidə dostları" bir-birilərinin pullarını necə oğurlayırlar*

***Sirr deyil ki, siyasiləşmiş və müxalifətyönlü qeyri-hökumət təşkilatları kimi tanınan bir çox qurumlar var ki, onların yaradılması, fəaliyyət istiqamətləri "demokratik cəmiyyət quruculuğu" adı altında olsa da, əsas hədəfləri xairici təşkilatlardan qrantlar və maliyyə dəstəyi almağa yönəlib.***



Belə qurumlardan biri də "demokratik dəyərlər uğrunda mübariz" Anar Məmmədlinin "Seçki Monitorinqi Mərkəzi" adlı təşkilatı idi ki, əslində, bu təşkilatın korrupsiyalaşmış bir qurum olması barədə kifayət qədər faktlar ortaya qoyulub. Bu, həmin A.Məmmədlidir ki, "Azad və ədalətli seçki" şüarı altında Azərbaycan əleyhinə çıxış edən bir sıra Qərb təşkilatlarından tapşırıq alaraq, gözünü növbəti böyük məbləğli maliyyə qazancına dikmişdi. Lakin bəri başdan deyək ki, A.Məmmədli bu dəfə həmin maliyyəyə sahib olmadı, çünki onun təşkilatında təmsil olunan Nahid adlı şəxs daha "ağıllı" tərpənərək, əldə edilən məbləğə sahib çıxıb.

### Anar Məmmədli öz yerinə atası Asəf Məmmədovu göndərmək qərarına gəlir

Sözügedən məsələni araşdırarkən, bir çox maraqlı nüanslar ortaya çıxıb. Belə ki, məlum səbəblərə görə, həbs olunmuş və sonradan ölkə rəhbərliyinin humanizm prinsiplərindən yararlanaraq azadlığa çıxmış, lakin buna qədər dağıdıcı müxalifət partiyalarının hay-harayı nəticəsində Avropada "vicdan məhbusu" statusu almış A.Məmmədli hələ "içəridə" olarkən, Avropa Şurasının Parlament Assambleyası ona Vatslav Qavel adına təsis edilmiş diplomu və 60 min avro miqdarında pul mükafatı təyin etmişdi. Qeyd edək ki, tanınmış Avropa liberalı Vatslav Qavel 2011-ci ildə öldükdən sonra AŞPA "Xartiya 77" Fondu və V.Qavel Kitabxanası ilə birgə mükafat təsis etmişdi. Bu üçlük hər il beynəlxalq aləmdə fəaliyyət göstərən hüquq müdafiəçiləri arasından birini seçərək, "liberal dəyərlərə" və s. amillərə görə bu mükafatı həmin seçilənlərə təqdim edirlər. Hətta bu mükafat fondu Avropa Parlamentinin təsis etdiyi Saxarov mükafatı ilə eyni çəkidə qiymətləndirilməkdədir. Beləliklə, bu dəfə həmin mükafat A.Məmmədlinin adına yazılmışdı.

2014-cü ildə həbsdə olduğuna görə, mükafatını almağa getməyə imkan tapa bilməyən A.Məmmədli öz yerinə atası Asəf Məmmədovu göndərmək qərarına gəlir. Hətta avropalı qəyyumlarından xahiş edir ki, pulları atasının bank hesabına yatızdırsınlar. Ancaq...

### Nahid İsmayılovun Berlinin "GLS Bank" vasitəsilə oğurluq planı

Ancaq bu arada A.Məmmədlinin "Seçki Monitorinqi Mərkəzi" adlı təşkilatının əməkdaşlarından biri, eləcə də, A.Məmmədlinin dostu - Nahid İsmayılov adlı şəxs bu fürsətdən yararlanmağa çalışıb və A.Məmmədova bildirib ki, əgər 60 min avro onun hesabına keçərsə, guya hakimiyyət bu hesaba həbs qoyacaq və vəsait batacaq (?!-R.N.).

Bəs sonra nə baş verir? A.Məmmədlinin dostu Berlində fəaliyyət göstərən "GLS Bank"da hesabının olduğunu deyərək, pulların bu hesaba yatırılacağı zaman toxunulmaz qalacağını atası A.Məmmədova deyir və onu buna inandırmağa nail olur. Nəticədə, A.Məmmədov iki nəfər AŞPA əməkdaşının şahidliyi ilə pulları N.İsmayılovun Berlin bankındakı hesabına yatızdırır.

16 mart 2016-cı ildə dövət başçısı İlham Əliyevin qərarına əsasən, əfv olunan A.Məmmədli azadlığa çıxır və çıxar-çıxmaz, təbii ki, sahib olacağı 60 min avronun taleyi barədə atası A.Məmmədovdan soruşur. Atası isə deyir ki, pullar onun dostu N.İsmayılovun Berlindəki bank hesabındadır. Əlbəttə, A.Məmmədli bu dəfə N.İsmayılovu tapır və pulların bankdan çıxarılmağı xahiş edir. Amma aldığı şok cavab, onu necə deyərlər, məəttəl qoyur. Çünki "siyasi əqidə dostu" və müxalifətçi "qardaşı" etiraf edir ki, pullar yoxdur və son qəpiyinə qədər xərclənib (???!!!-R.N.).

### Avropanın göbəyində Qənimət Zahidlə Mirzə Sakit qardaşları arasında pul davası

Bu hadisə isə hələ 6 il öncə Avropanın göbəyində Əli Kərimlinin "media adamları" - Qənimət Zahidlə Mirzə Sakit qardaşlarının pul üstündə əlbəyaxa davasını xatırladır. Həmin vaxt "Norveç Evi" onlara münbit maliyyə dəstəyi ayırmışdı və nəticədə, həmin pullar iki qardaş arasında ədalətlə bölüşdürülmək əvəzinə, avropalılar qarşısında rüsvayçı davaya çevrilmişdi. Həmin pul düşmənçiliyi isə bu gün də davam edir.

Əslində, baş verən olay, ya da olaylar bir daha müxalifətçi düşüncəsində olan şəxslərin nə qədər satlıq və mənəviyyata sahib olmayan fərdlər olduğunu sübuta yetirir. Bir-birilərinə qarşı pul "atmaq", aldatmaq, pula görə hər şeyini, hətta vicdanını, şərəf və ləyaqətini satmaq bələləri üçün adi hala çevrilib. Hətta dövlətçilik maraqlarını sataraq, ondan gəlir əldə etmək qədər mənəviyyatsızlıq amili reallığı heç bir ölkə müxalifətində yoxdur ki, Azərbaycanda ənənəvi müxalifət düşərgəsində bu, mövcud olaraq qalmaqdadır.

### Əli Kərimlinin, Arif Hacılının, Xədicə İsmayılın, Leyla Yunusun, Emin Hüseynovun və sairlərinin hər birində ştamplı-peçatlı oğru statusu mövcuddur

Demək, A.Məmmədli olayından da, belə bir nəticəyə gəlmək olar ki, "Seçki Monitorinq Mərkəzi" təşkilatı vasitəsilə ölkədə inqilab edəcəyini avropalılar qarşısında öhdəsinə götürən A.Məmmədli onların inamlarından sui-istifadə edərək, pul qazanır, nəticədə, ifşa olunub həbs olunur - "əqidə dostu" N.İsmayılov ona və atasına qarşı oğurluq edir, yəni pullarını "atır" və s. Bu günün müxalifəti, məhz belədir! Hətta ən kriminal dairələrdə belə, bu cür oğurluq qəbul edilmir, bənzər hallar müşahidə olunduqda, Allah bilir ki, öz aləmlərində həmin adamların başlarına hansı oyunlar açılır...

Bu gün Əli Kərimlinin, Arif Hacılının, Xədicə İsmayılın, Leyla Yunusun, Emin Hüseynovun və sairlərinin hər birində ştamplı-peçatlı oğru statusu mövcuddur. Onlar da eynilə A.Məmmədlinin "əqidə dostu" N.İsmayılov kimi bir-birilərini avro və dollarlara görə didib-parçalamağa hazırdırlar. Çünki ictimai rəy də dəfələrlə belə hadisələrin şahidləri olub. Necə deyərlər, hər şey göz qabağındadır...

**Rövşən RƏSULOV**

# AXCP ilə "GAP" arasındakı qalmaqal böyüdü!

## *Ağasif Şakiroğlu: "Əli Kərimli partiydaşlarını şantaj edərək ətrafında saxlamaq istəyir"*



Son günlər bir neçə AXCP üzvünün istefa verərək, "Gələcək Azərbaycan Partiyası"na üz tutması hər iki partiya arasında əsl düşmənçilik münasibətləri yaradıb. AXCP və "GAP" üzvlri sosial şəbəkələrdə bir-birilərini təhqir edir, söyüşlər səsləndirirlər. Bununla da, öz "lider"lərinin tapşırıqlarını yerinə yetirməyə çalışırlar. "GAP" üzvlərindən kimsə sosial şəbəkədə status paylaşırsa, AXC üzvləri dərhal ona aşağılayıcı və təhqiredici şərhlər yazırlar.

"GAP" sədri Ağasif Şakiroğlu AXCP ilə aralarındakı dava-dalaşa münasibət bildirib. O, mətbuata verdiyi açıqlamasında qeyd edib ki, mart ayından etibarən AXCP rəhbərliyi, həmçinin, "Milli Şura" bütün resurslarını "Gələcək Azərbaycan Partiyası"na, mənə və xüsusilə də, Rəsul Quliyevə qarşı yönəldərək, olduqca primitiv və özlərinin üslubunda, murdar bir kampaniya aparırlar: "Son günlər isə AXCP daxilində olan bir sıra gənclərin onları tərk edərək, rəhbəri olduğum partiyaya qoşulmaları onlarda xüsusi narahatçılıq yaradıb. AXCP sədri Ə.Kərimlinin şəxsi komandası ilə bu sosial şəbəkə "qəhrəmanları" öz aləmlərində bizə qarşı mübarizə aprırlar. Sosial şəbəkədə özləri yazır, bəyənir, paylaşır və bununla da, bir növ təsəlli tapırlar. Əgər dedikləri həqiqət idisə, partiyanın mətbuat xidməti normal bir açıqlama verərdi, məsələ də bununla bitərdi. Bu məsələ isə onlara o qədər yer edib ki, isterikadan çıxa bilmirlər. Həm də bütün bu olanlar, ona hesablanıb ki, digər AXCP-dən istefa verməyə hazırlaşan insanlar bu təhqirlərə baxıb istefa verməsinlər".

A.Şakiroğlu daha sonra onu da bildirib ki, Ə.Kərimli öz aləmində digər müxalifət liderlərinə qara yaxmaqla müxalifətdə monopolist olmasını təmin etmək yolu seçib: "Ə.Kərimli 2005-ci ildən 2013-cü ilə qədər səviyyəsiz bir tip olub. Yəni bunu mən yox, elə rəy yazanlar deyir. Adamların düşüncə tərzi budur. AXCP-dən istefalar davamlı olacaq".

Göründüyü kimi, hər iki partiya arasındakı ziddiyyətlrin bundan sonra da artacağı ehtimalı daha böyükdür. Ən azından, ona görə ki, Ə.Kərimli AXCP-dən istefa verib "GAP"-a gedən şəxsləri hədəfə alacaq, onları hansısa yollarla şantaj edəcək. Təbii ki bu zaman "GAP" öz yeni üzvlərini müdafiə etmək məcburiyyətində qalacaq. Məhz bundan sonra hər iki dağıdıcı müxalifət partiyası arasındakı ziddiyyətlər biabırçı həddə çatacaq. Hətta məsələyə açıq müstəvidə Ə.Kərimli də R.Quliyev də reaksiya verərək, bir-birilərinin ünvanlarına ittihamlar səsləndirəcəklər. Necə ki, R.Quliyevlə "Milli Şura"nın sədri C.Həsənli arasında eyni hal yaşanmışdı.

**Samir**

# Müsavat və AXCP tənəzzül dövrünü yaşayır

## *Əjdər Əliyev: "Bunu dərk edənlər həmin qurumlardan uzaqlaşırlar"*

Son günlər siyasi arenada diqqətçəkən maraqlı məqamlardan biri də dağıdıcı müxalifət partiyalarından növbəti istefaların baş verməsidir. Xüsusilə də, Müsavat və AXCP-dən istefa dalğasının geniş xarakter alması, bəzi ekspertlər tərəfindən o qənaəti yaradıb ki, yaxın vaxtlarda sözügedən partiyalar fəaliyyətlərini dayandıra bilər. Baxmayaraq ki, xarici qüvvələr bunu arzu etmirlər. Amma batan gəmini xilas etmək mümkün deyilsə, tarixin arxivinə atılmağa yaxın olan Müsavat və AXCP-nin xilası da xarici qüvvələrin iradəsindən kənardır. Söhbət etdiyimniz Böyük Quruluş Partiyasının Ali Məclisinin sədri Əjdər Əliyev də o fikirdədir ki, istefaların daha kütləvi xarakter alması AXCP və Müsavat üçün "olum-qalım" problemi yarada bilər: "Siyasi hakimiyyət uğrunda mübarizə aparan təşkilatlarda istefalar kütləvi və müntəzəm xarakter daşıyırsa, bunun səbəblərindən biri həmin qurumun fəaliyyətinin perspektivsizliyinin dərk edilməsidir. Siyasi partiyalar o zaman güclənir və günü-gündən inkişaf edir ki, həmin təşkilatların realist və çatılası mümkün hədəfləri olur. Belə olduqda, həmin təşkilatlarda nə qopmalara rast gəlinmir, nə də ki, ümidsizlik hallarına. Əgər partiyalar öz üzvlərini itirir, yeni üzvlərin gəlişi ilə sıralarını möhkəmləndirə bilmirsə, deməli, həmin təşkilatlar artıq tənəzzül dövrünü yaşayır".

"Zaman-zaman Müsavatdan, AXCP-dən və digər partiyalardan istefalar baş verir və bunun səbəbini də partiya sədrlərinin yanlış siyasəti ilə əlaqələndirirlər. Sizcə, nəyə görə bu partiya sədrləri səhvlərindən və yanlış siyasətlərindən nəticə çıxarmırlar" sualına cavab olaraq Ə.Əliyev bildirdi ki, əgər adını çəkdiyiniz partiyaların rəhbərliyində təmsil olunan şəxslər öz səhvlərini dərk edib, ondan doğru nəticə çıxara bilsəydilər, yəqin ki, bu gün pərən-pərən duruma düşməz, parçalanmaz və günü-gündən zəifləməzdilər: "Eyni məramnaməyə, elan etdikləri eyni ideologiyaya mənsub olduqlarını iddia edən siyasi təşkilatların ayrı-ayrılıqda fəaliyyət göstərmələri, daha doğrusu, mövcud olmaları, zaman-zaman bir-birinə qarşı dözülməz düşmənçilik münasibəti sərgiləmələri normal məntiqlə izah oluna bilərmi? Adını çəkdiyiniz siyasi partiyaların sıravi üzvləri həmin qurumların başında duran şəxslərin şəxsi ambisiyalarının, mənəmlik ehtiraslarının qurbanına çevriliblər. Bunu dərk edənlər də həmin qurumlardan uzaqlaşırlar".

**GÜLYANƏ**

TƏRS BAXIŞ

# İsa Qəmbər zərbə altında

*Arif Hacılıya qarşı etirazlar artır*

***Müsavat partiyasının hələ bir neçə il öncə baş tutan saxta qurultay və saxta başqanlıq seçimi ətrafındakı söz-söhbətləri bu gün də davam etməkdədir. Belə ki, sabiq başqan İsa Qəmbərin başabəla qurultayda Arif Hacılının başqan seçilməsində göstərdiyi inadkarlığı hazırda onun özünə də zərbə vurmaqdadır. Çünki A.Hacılı aşkar şəkildə partiyadakıları narazı salmaqdadır.***

Artıq nəinki Müsavatın ölkədəki təmsilçiləri, eləcə də, xaricə köçmüş üzvləri də onun yürütdüyü partiyadaxili siyasətə etirazlarını bildirməklə, eksbaşqan İ.Qəmbərin əsas günahkar olduğunu vurğulayırlar.

## Etiraz edənlər isə dərhal "vurularaq" sıradan çıxarılır...

Bu gün Müsavat sıralarını tərk edərək müxtəlif müxalifətyönlü siyasi qurumlar ətrafında cəmləşən sabiq müsavatçılar "müsavatçılıq ideologiyası"nın, məhz İ.Qəmbər tərəfindən məhv edildiyini iddia edərək, onu bu məsələdə "hakimiyyətə işləyir" ittihamı ilə suçlayırlar. O cümlədən, A.Hacılının başqan olmasına rəğmən, bu günün özündə İ.Qəmbərsiz heç bir addım atmadığı qənaətində olanlar da kifayət qədərdir. Söz yox ki, bu gün İ.Qəmbə-



rin sədri olduğu "MSDM" adlı qurum, sadəcə, gözdən pərdə asmağa yönəlmiş və uğursuz bir gedişdir. Çünki onun əsas hədəfi prezident seçkilərində iştirak etməkdən ibarətdir. Bu barədə A.Hacılının özü də bir neçə dəfə bildirib. Reallıq da budur ki, İ.Qəmbər Müsavatın rəsmi başqanı olmasa da, partiyaya rəhbər təyin elədiyi A.Hacılını tapdayıb yenidən seçkilərə qatılması ambisiyasını ortaya qoyması ilə, əslində, adıçəkilən siyasi təşkilatı kulis arxasından idarə etdiyini etiraf edir. Buna etiraz edənlər isə dərhal "vurularaq" sıradan çıxarılır, yaxud da fəaliyyətinə süni əngəllər yaradılır.

## Elbəyi Həsənlini kimlər tikə-parça edəcəkdi, yaxud geriyə nəzər...

Onlardan biri də sabiq müsavatçı, "Yeni Müsavat" qəzetinin sabiq jurnalisti, hazırda Avropada mühacirət həyatı yaşayan Elbəyi Həsənlidir. Hələ onun etiraz etdiyi dönəmlərdə İ.Qəmbər-A.Hacılı cütlüyü barədə səsləndirdiyi fikirlərindən dolayı yaranmış səs-küy nəticəsində E.Həsənlinin istefaya göndərilməsi ilə başa çatdı. İ.Qəmbər-A.Hacılı cütlüyü özlərinə qarşı irəli sürülən ittihamı E.Həsənlinin üzərinə yıxaraq, onun hakimiyyətlə iş birliyində olduğunu iddia edirdilər. Həmin vaxtlar E.Həsənli belə bir xatırlaması ilə yadda qalmışdı: "Müsavatçı həmkarım zəng vurub deyir ki, bəy, sənin işin şuluqdur, səni patiyadan çıxaracaqlar. Niyə elə düşündüyünü soruşdum. Dedi ki, niyəsi yoxdur. Arif Hacılı şəxsən sənin haqqında status yazıb: "...Müsavatın qaragüruhçu elitası əl-ələ verib üstünə yeriyir. Divan üzvləri Alya Yaqublu, Osman Kazımov, müavinlər Elman Fəttah, Səxavət Soltanlı, müşavirlər və hücumun önündə MNTK sədri Müsavatın "femidası" Sevinc Hüseynova. Düyməyə basıblar, səni tikə-parça edəcəklər. Partbiletini əlindən ala bilərlər, amma onların dəstəsi sənin klaviaturan ağırlığında belə deyil".

Göründüyü kimi, bu gün də eyni mühit Müsavatda davam edir və artıq bıçağın sümüyə dirəndiyi də göz önündədir. Bu gün Müsavat sıralarında olan bir çoxları getmək barədə fikirləşirlər. Sadəcə, partiya daxilində bir qığılcım kifayət edər ki, İ.Qəmbər də daxil olmaqla, onun ətrafında olanların hər biri siyasi məzarlığa gömülsün. Təkcə son vaxtlar baş verənlər A.Hacılı kartından istifadə edərək, növbəti seçkilərə qatılmaq planlarını qurmuş İ.Qəmbərə ciddi zərbələr vurmaqdadır. Necə deyərlər, danılmaz fakt ortadadır.

**Rövşən RƏSULOV**

# "Biznes dəllalı" Əli Kərimlinin növbəti çirkin əməlləri

*Gözəl Bayramovadan sonra növbədə kimdir?*

***Məlum olduğu kimi, "Yurd" sədri Əli Kərimli Azərbaycan - Gürcüstan sərhədində çantasında 12 min dollarla saxlanılmış müavini Gözəl Bayramova üçün sosial şəbəkələrdə dəstək kampaniyasına başladıb. G.Bayramova həbsin siyasi sifariş olduğunu uyduran və bunu məqsədyönlü tərzdə həbsə "hazırlıq işi"nin tərkib hissəsi hesab edir. Bu, heç də təəccüb doğurmur. Çünki satıb-satılan, xəyanətkar və cinayətkar Ə.Kərimli yenə də öz çirkin əməllərindən əl çəkməyərək, müxalifətə guya hakimiyyət tərəfindən siyasi təzyiqlərin olduğunu bildirərək, bununla da, bir daha xarici qüvvələrin diqqətini özünə cəlb etməyə çalışır.***

## Gözəl Bayramova Əli Kərimlinin gəlir mənbəyinə çevrilən təlesi

Həmişə olduğu kimi, yenə də Ə.Kərimli G.Bayramova və digər "Yurd" üzvlərinin həbslərinin siyasi həbslərin davamı olduğunu iddia edir. Həyatı boyu "Yurd" sədri hər sahədə özünə siyasi dividend və gəlir mənbəyi axtarıb və bu gün də "siyasi həbslər" deməklə şəxsi qazanc mənbəyinə biznes kimi baxır. Qeyd etmək lazımdır ki, ilk dəfə bu məqsədlə Nardaran hadisələrində Fuad Qəhrəmanlını qabağa verdi və həbs edilməsinə vasitəçilik etdi. İndi də həmin proses Gözəl Bayramovanın başına gətirildi. Digər bir məqamı isə, AXCP sədri yaxşı bilirdi ki, onun müavinlərinin ölkədən gediş-gəlişi nəzarət altındadır və bu nəzarəti də özü təşkil edir və Gürcüstanda öz kanalları vasitəsilə külli miqdarda pulları G.Bayramlının çantasına yükləməklə, onun "siyasi məhbus" kimi həbsinə nail olmağı planlaşdırmışdı. Ancaq "Yurd" sədrinin "siyasi məhbus" biznesi baş tutmadı, necə deyərlər, daş qayaya rast gəldi.

## Rəsul Quliyev: "Müxalifətin limiti çoxdan tükənib, abırları varsa, siyasi meydanı tərk etsinlər"

"Çıxılmaz vəziyyətə düşən Ə.Kərimlinin xarici qüvvələrin əmrlərini yerinə yetirə bilmədiyi üçün mitinqlər keçirməyi çıxış yolu hesab etdiyini" qeyd



edən eks-sipiker Rəsul Quliyev bildirib ki, öz müavinlərini satan partiya sədrindən, özü də Ə.Kərimli kimi satqından bunu gözəmək təəccübli deyil: "Müxalifət düşərgəsində olan partiya sədrləri elə cəsarətin sahibi deyillər. Çünki istər Əlisi, istərsə digər partiya sədrləri xarici himayədarları ilə məsləhətləşmədən hansısa iddialı fikir irəli sürə bilmirər. 23 ildən çoxdur ki, "biz udacağıq" deyillər. Bu tipli fikirlər xalq arasında çoxdan lətifələrə çevrilib."

R.Quliyev yenə də dağıdıcı müxalifəti ağıllı olmağa çağırsa da, bu "badbaxtların" düzəlməyəcəklərini deyib: "Bu "badbaxtlar" hansı ağılla düz yola gələ bilərlər? Onlar bir şeyi unudurlar: son sözü xalq deyir. Xalq isə indiki dağıdıcı müxalifətə sözünü hələ 1993-cü ildə deyib. Abırları varsa, üzüsulu ikən siyasi meydanı tərk etsinlər"

**Rəfiqə HÜSEYNOVA**

# Rəsul Quliyevin qulbeçələri nə istəyir?

*İcazəsiz aksiya keçirib "təzyiq"lərə məruz qaldığını iddia edərək "siyasi mühacir" kimi ölkədən getmək bunların əsas məqsədidir*

***Son vaxtlar eks-spiker Rəsul Quliyevin yaratdığı "Gələcək Azərbaycan Partiyası" ilə AXCP arasındakı münasibətlər daha da gərginləşib. Hətta vəziyyət o həddə çatıb ki, artıq hər iki partiyanın rəhbərliyinin tapşırığı ilə partiya üzvləri təkcə sosial şəbəkələrdə bir-birilərini təhqir etmir, həm də çayxanalarda üzbəüz "razbor"kalara da gedirlər. Partiyalararası gərginliyin və düşmən münasibətlərin isə bir neçə səbəbi var. Əvvəla, R.Quliyevlə Ə.Kərimli arasındakı köhnə ədavət, düşmənçilik və hər iki "lider" aralarındakı şəxsi intriqaya gənclərin qurban verilməsində maraqlıdırlar.***



Dağıdıcı müxalifətin "jurnalist" adlandırdığı, əslində isə, heç bir yazı-pozusu olmayan, daim provakator kimi çıxışlar edən Əfqan Muxtarlı məsələsindən hər iki partiya-həm AXCP, həm də "Gələcək Azərbaycan Partiyası" yararlanmağa çalışır. Bu istiqamətdə AXCP-nin atdığı anti-Azərbaycan yönümlü addımlardan hər kəs xəbərdardır. Yeni cəbhəçilər sosial şəbəkələrdə tam ciddi-cəhdlə çalışırlar ki, Ə.Muxtarlını müdafiə etsinlər, xarici havadarlarının diqqətini ona yönəltsinlər və o, "siyasi məhbus" kimi kimlərinsə siyahısında yer alsın. Hətta bunun üçün xarici dövlətlərə gedərək, orada müxtəlif məkrli qüvvələrlə görüşlər keçirən cəbhəçilər və müsavatçılar da var. Bu məsələ həm Ə.Kərimli, həm də İ.Qəmbər və A.Hacılı üçün əsl qazanc mənbəyidir. Heç şübhəsiz ki, adıçəkilən şəxslər Avropada "demokratiya və sülh" pərdəsi altında fəaliyyət göstərən, əslində isə, müsəlman dövlətlərinə inqilablar ixrac etməyə çalışan təşkilatlardan böyük məbləğdə pullar alaraq Ə.Muxtarlının "müdafiəsi" adı ilə xərcləyəcəklər. Təbii ki, həmin təşkilatlar bu adamların öz dövlətlərinə xəyanət etdiklərinin, alınan pulların şəxsi maraqlarına xərclənməsinin fərqindədirlər. Lakin hələ ki, öz təxribatçı maraqlarını təmin etdirmək üçün mümkün qədər "sapı özümüzdən olan baltalardan" yararlanmağa çalışırlar.

Ə.Muxtarlının həbsi üzərində özünə və ətrafındakılara dividend qazandırmağa çalışan R.Quliyevin də atmaq istədiyi addımlar ikrah doğurur. Barmaqla sayılacaq qədər üzvü olan "Gələcək Azərbaycan Partiyası" öz fəaliyyətsizliyini ört-basdır etmək və özünü cəmiyyətə "əsl müxalifət" partiyası kimi sırımaq üçün Ə.Muxtarlının "müdafiəsi" adı altında səfirliklərin qarşısında piket keçirməyi planlaşdırır. Gürcüstanın Azərbaycandakı səfirliyinin qarşısında piket keçirməyi planlaşdıran R.Quliyevin qulbeçələri həm də məkrli plan qurublar. Plan bundan ibarətdir ki, icazəsiz olaraq piket keçirməli, polislərə müqavimət göstərməli, dağıdıcı addımlar atmalı və ən nəhayət, həbs edilməli... Bəli, icazəsiz aksiya keçirib həbs edilmək, səs-küy salmaq, özlərini "siyasi məhbus" kimi siyahıya saldırmaq və yaxud da bir neçə günlük həbsdən sonra "təzyiq"lərə məruz qaldıqlarını iddia edərək, "siyasi mühacir" kimi ölkədən getmək bunların əsas məqsədidir. Hətta bunun üçün R.Quliyev skayp vasitəsilə "Gələcək Azərbaycan Partiyası"nın sədri Ağasif Şakiroğluna lazımı tapşırıqlar da verib, böyük məbləğdə pul da göndərib.

Göründüyü kimi, hələ də öz peşəsindən, ənənəvi xislətindən yaxa qurtarmağı bacarmayan R.Quliyev anti-Azərbaycan fəaliyyəti davam etdirir. Bu gun bu "fəaliyyət"in öz taleyinə bir ləkə kimi yapışmasında maraqlı olanlar onun yanındadırlar. Bir müddət sonra pul və şirin vədlər müqabilində R.Quliyevə "xidmət" edənlər çıxış yolu tapa bilməyəcəklər. Ancaq R.Quliyev bələlərini yenə tapacaq, qəpik-quruş müqabilində öz dövlətlərinə xəyanət etmələrinə rəvac verəcək.

**Samir**

# Azərbaycanda insan hüquqları, azadlıqları, qanunun aliliyi və hüquqi dövlət

***Müasir demokratik respublikalarda qanunlar insan hüquqlarının təmin olunmasına səbəb olur. Ədalətlilik ideyası, sosial və təbii hüquqlar və insan hüquqları hüquqi dövlətdə reallaşır.***

Hüquqi dövlətin əlamətləri aşağıdakılardır:

1. İnsan hüquqlarının dövlətə münasibətdə prioriteti (hüquqi dövlət insan hüquq və azadlıqlarına toxunulmazlığı qəbul edir, həmçinin, onları qorumağı özünün vəzifəsi hesab edir).
2. Hakimiyyət bölgüsü.
3. Dövlət və ictimai həyatın hüquq prinsipləri əsasında qurulması.
4. Şəxsiyyət və dövlətin qarşılıqlı məsuliyyəti.

Vaxtilə K.Marks yazırdı ki, dövlət insan və onun hüquqi azadlığı arasında vasitəçi kimi çıxış edir. İnsan, şəxsiyyəti isə hüquqi münasibətlərin əsas mərkəzi subyektidir.

Məlum olduğu kimi, insan hüquqları mülki və ya şəxsi, siyasi, iqtisadi, sosial və mədəni hüquqlardan ibarətdir.

R.Dahl bu məqamda dövlət idarəçiliyi və hüquqi münasibətlər haqqında ətraflı bir mülahizə söyləmişdir: "Dövləti idarə etmək üçün ixtisaslı biliklər kifayət deyil, bunun üçün daha çox şey tələb olunur. Bunun da bir neçə səbəbi var.

Birincisi, siyasi kursa aid bütün qərarlar - istər şəxsi məsələlərin, istərsə də kollektiv məsələlərin həlli olsun, əxlaqi qiymətləndirmə tələb edir. Hökumətin siyasətinin yönəldiyi məqsədlərin (ədalət, bərabərlik, ədalət mühakiməsi, sağlamlıq, xoşbəxtlik, yaşayıb sağ qalmaq, təhlükəsizlik, firəvanlıq və sair və ilaxr) əldə olunması barədə qərarlar qəbul etmək - əxlaqi nəticə çıxarmaq deməkdir.

İkincisi, xoş niyyətlər çox vaxt bir-biri ilə ziddiyyətə girir, resurslar isə sonsuz deyil. Demək, siyasətə aid qərarlar onların bir insan və ya hökumət tərəfindən qəbul edilməsindən asılı olmayaraq, demək olar ki, həmişə kompromisin və tarazlaşdırılmış son məqsədlərin əldə olunması barədə nəticə çıxarılmasını tələb edir. Məsələn, iqtisadi bərabərlik iqtisadi stimullarla fəlakətli təsir göstərir". Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra hüquqi dövlət quruculuğu yolu ilə inkişaf etməyə başladı.

- Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətçiliyin hər üç əsas aspekti - humanitar hüquqi (insan və vətəndaş hüquq və azadlıqları), normativ-hüquq (qüvvədə olan hüququnun bütün mənbələrinin konstitusion-hüquqi təbiəti) və institusional-hüquqi (hakimiyyətlər bölgüsü və qarşılıqlı fəaliyyəti sistemi) komponentlər öz təsbitini tapmışdır.

Belə ki, konstitusiyaya görə, "Azərbaycan dövləti demokratik-hüquqi, dünyəvi, unitar respublikadır." "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin konstitusiyanın 1-ci və 2-ci fəsilləri Azərbaycan Respublikasının ictimai və dövlət-hüquqi quruluşunun yeniliyini müəyyən edən bir sıra digər prinsipial müddəaları təsbit edir.

Hüquqi dövlətçilik başlanğıclarının təsdiqi baxımından konstitusiyanın dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilməsi haqqında insan və vətəndaş hüquqlarının və azadlıqlarının birbaşa qüvvədə olması haqqında Konstitusiyanın Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malik olması haqqında müddəaları müəyyənedici əhəmiyyətə malikdir.

Ölkədə vətəndaş cəmiyyətinin formalaşdırılmasının əsasları hər kəsin mülkiyyət hüququna malik olması, mülkiyyətin heç bir növünə üstünlük verilməməsi, mülkiyyət hüququnun, o cümlədən, xüsusi mülkiyyətin qanunla qorunması, azad sahibkarlıq hüququ haqqında konstitusion normalarda təsbitini tapmışdır. Konstitusion quruluşun ideoloji və siyasi xarakteristikaları hər kəsin istənilən birlik, o cümlədən, siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququ, bütün biliklərin sərbəst fəaliyyətinə təminat verilməsi (58-ci maddə) haqqında müddəalarda təsbit olunur.

Azərbaycan Respublikasının Konstitusiyası özünün əsas müddəalarında yuridik hüquq anlamı tipinə istinad edir ki, bu da son nəticədə, əsas qanunun hüquqi xarakterini müəyyən edir. Bu zaman konstitusiyaya xas olan hüquq anlamının xüsusiyyətləri belə bir prinsipial amillə şərtlənir ki, söhbət totalitar, anti-hüquq sosializmindən postsosialist hüquqi quruluşa keçmiş ölkənin konstitusiyasından gedir. Bu vəziyyətdə söhbət artıq təşəkkül tapmış hüququn və hüquq qaydasının təkmilləşdirilməsindən və daha da inkişaf etdirilməsindən deyil, ictimai və siyasi həyatda hüquqi başlanğıcların formalaşdırılmasından və bərqərar edilməsindən, dövlət həyatının hüquqi təşkilindən, hakimiyyət və fərdlər arasında hüquqi münasibətlərdən və şəxsiyyətin hüquqi statusunun müdafiəsindən gedir.

Hüquqi başlanğıc və ümumiyyətlə, hüquq cəmləşdirilmiş şəkildə, ilk növbədə, insan hüquqları və azadlıqları şəklində təmsil olunmuşdur. Yeni Konstitusiyanın mühüm məziyyətlərinlən biri, məhz konstitusion qaydada tənzimlənən məkanın və xüsusilə, hüquqi dövlətçiliyin əsas xarakteristikalarının insan hüquq və azadlıqları, onların tanınması və müdafiəsi baxımından verilməsindən ibarətdir. Belə yanaşma hüququn inkarının, ilk növbədə, insanların hüquqsuzluğu ifadə etdiyi totalitar sosialist keçmişinə malik cəmiyyət üçün, xüsusilə, önəmli və aktualdır. Çünki sovet vətəndaşlarının hüquq və azadlıqları haqqında konstitusion müddəalar saxta xarakter daşıyır.

Azərbaycan Respublikasının Konstitusiyasına xas olan yeni hüquqi yanaşma ictimai və dövlət həyatında hüququn və ədalətin tanınmasının, onlara riayət olunmasının əsas göstəricisi kimi insan hüquq və azadlıqları haqqında tarixin sınağından keçmiş müddəaya istinad edir. Bu insan mərkəzçi hüquq anlamını hüququn və qanunun fərqləndirilməsinin və nisbətinin ümumi konspesiyasının özünəməxsus təbii-hüquqi variantı kimi xarakterizə etmək olar. Bu özünəməxsusluq ondan ibarətdir ki, konstitusiyaya görə, ilkin hüquqi başlanğıc insan hüquq və azadlıqlarında təcəssümünü tapır. Konstitusiya müəyyən edir ki, "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır"".

Qanunun aliliyinin əsas prinsipləri aşağıdakılardır:

- bütün hakimiyyət orqanları və nümayəndələri konstitusiya və ölkənin qanunlarına uyğun hərəkət etməlidirlər;
- silahlı qüvvələr, polis, xüsusi xidmət orqanları mülki hakimiyyət orqanlarına hesabat verməlidir;
- qanunların müzakirə edilməsi və qəbul edilməsinin şəffaf prosedurları mövcud olmalıdır;
- bütün qanunlar və inzibati qanunlar cap olunmalıdır (bunsuz onların hüquqi qüvvəsi yoxdur);
- inzibati qərarlardan səmərəli şikayət vasitəsi mövcuddur;
- müstəqil məhkəmə hakimiyyəti mövcuddur.

Azərbaycan tədqiqatçısı H.Q.Məmmədov hüquqi dövlət, insan haqları və qanunun aliliyinin qarşılıqlı münasibətləri haqqında yazır: "Ümumiyyətlə, hüquq və insan hüquqları bir-birindən asılı olmayan fərqli fenomenlər deyil, eyni mahiyyətli təzahürlərdir. İnsan hüquqları hər hansı hüququn zəruri, ayrılmaz və labüd komponentidir, insanların azadlıq və bərabərlik formasının varlığının və gerçəkləşdirilməsinin ifadəsinin müəyyən aspektidir. Hüquqdan kənarda insan hüquqları mümkün olmadığı kimi, insan hüquqları olmadan hüquq mümkünsüzdür. Hüququn mənasının və əhəmiyyətinin formalaşmasının və təsdiqinin uzun və çətin tarixi boyunca insan doğulmasından bəri ona məxsus olan özgəninkiləşdirilməyən təbii hüquqları haqqında təsəvvür mühüm rol oynamışdır. Həmin hüquqlar ümumi hakimiyyət və qanunlar tərəfindən ictimai-siyasi həyatın fundamental əsası kimi tanınmalı və təmin edilməlidir.

Belə hüquq anlamı müstəvisində və əsasında Yeni Konstitusiyasında (3-cü fəsil) insanın və vətəndaşın şəxsi, siyasi, sosial və iqtisadi hüquqlarının müasir beynəlxalq standartlara və inkişaf etmiş demokratik ölkələrdə konstitusion tələblərin səviyyəsinə uyğun geniş dairəsi təsbitini tapmışdır. Bu zaman vurğulanır ki, konstitusion qaydada təsbitini tapmış hüquq və azadlıqlarının zərərinə şərh edilə bilməz".

Konstitusiyanın 148-ci maddəsinin ikinci hissəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Bu müddəa insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi baxımından, xüsusilə, önəmlidir.

Konstitusion hüquq və azadlıqlar sırasında hər kəsin mülkiyyət hüququnun təsbiti, o cümlədən, xüsusi mülkiyyət hüququn konstitusion təminatlarının təsbit olunması (29-cu maddə) prinsipial əhəmiyyətə malikdir. Hər kəsin azad sahibkarlıq hüququnun tanınması da çox önəmlidir (59-cu maddə).

Konstitusiya, həmçinin, hər kəsin əmək hüququnu təsbit edir, məcburi əməyi qadağan edir (35-ci maddə), fərdi və kollektiv əmək mübahisələri hüququnu, o cümlədən, tətil hüququnu (36-cı maddə) nəzərdə tutur.

Bütün digər hüquq və azadlıqların ifadəsindən yeni yanaşma aydın surətdə özünü göstərir. Bununla əlaqədar əvvəllər konstitusion çərçivədən kənarda qalmış hüquq və azadlıqların tanınması diqqətəlayiqdir. Həmin hüquq və azadlıqlar sırasında hər kəsin yaşamaq hüququ, azadlıq hüququ, təhlükəsizlik hüququ, şəxsi toxunulmazlıq hüququ və qohumların əleyhilə ifadə verməyə məcbur edilməməsi qeyd olunmalıdır.

Konstitusiyanın 71-ci maddəsinə görə, konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə, səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxlaq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdıra bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev ölkəmizdə qanunun aliliyinin bərqərar olunduğunu cəmiyyətə bildirir: Azərbaycanda bütün azadlıqlar təmin edilir, Azərbaycan, bu baxımdan çox sürətlə inkişaf edən ölkədir. O cümlədən, dini azadlıqlar təmin edilir: Unikal bir ölkədə yaşayırıq. Bizdə bütün ölkələrin nümayəndələri rahat yaşayırlar, ölkəmizin inkişafına öz töhfələrini verirlər. Ona görə də, bütün məsələlər kompleks şəklində öz həllini tapır.

İlham Əliyev bildirib ki, Azərbaycan öz mili və dini ənənələrinə sadiqdir: "Bizim bu işdə dünya miqyasında müsəlman aləmində oynadığımız rol müsəlman aləmi tərəfindən yüksək qiymətləndirilir. Müsəlman aləmini birləşdirən ən böyük təşkilat İslam Əməkdaşlıq Təşkilatıdır. Bu təşkilatın rəhbərlərinin Azərbaycanda gedən proseslərlə bağlı fikirləri dəfələrlə mətbuata dərc edilib. Bizdə dini məsələlərdə onlar tərəfindən verilən qiymət ən böyük göstəricidir. Bunu biz demirik, bunu müsəlman aləmini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı deyir, həmişə bizi dəstəkləyir, o cümlədən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqelərini dəstəkləyir".

Beləliklə, dövlət quruculuğu, qanunun aliliyi və insan hüquqlarının müdafiə olunması sisteminin müasirləşməsi mərhələsi Azərbaycanın bölgələrində hüquq infrastrukturunun genişləndirilməsi və müvafiq olaraq, Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və onun təcrübədə tətbiqi, insan hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə sahəsində dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, informasiya texnologiyaları, yeni avadanlıq və ləvazimatlarla təmin edilməsi, məhkəmə binalarının əsaslı təmiri və yenilərinin tikilməsi və sair kimi məsələlərinin həllini müəyyən edir.

Bu gün Azərbaycan cəmiyyəti indiyə qədər görünməmiş böyük sürətlə inkişaf edir. Belə şəraitdə insan faktoru, insan hüquq və azadlıqlarının müdafiəsi ən önəmli vəzifələrdən birinə çevrilir. Yalnız məhkəmə-hüquq islahatlarını ardıcıl və dönmədən həyata keçirməklə insan hüquq və azadlıqlarına təminat verən demokratik, hüquqi və vətəndaş cəmiyyəti qurmaq mümkündür.

Ümummilli Lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi, məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar hüquq sisteminin davamlı inkişafını təmin edəcəkdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Kartof nə vaxt zəhərə çevrilir?



Rasionumuzda tərəvəzin, xüsusən, kartofun əhəmiyyəti böyükdür. Çox az adam kartofu sevmir. Kartof hər gün bizim süfrəmizdədir. Onu haqlı olaraq "ikinci çörək" adlandırırlar. Göyərmiş kartof isə ayrı məsələdir. Kartof uzun müddət işıqlı yerdə saxlananda göyərir. Bu isə o deməkdir ki, yəni solaninin əti yerində qlikoalkaloidin, yəni solaninin miqdarı artır. Solanin zəhərlidir. Orqanizmə düşəndə ağızda acı dad, dilin yanması, mədədə ağırlıq, ürək bulanması və s. fəsadlar əmələ gətirir.

Kartofdan zəhərlənməmək üçün ilk növbədə onu düzgün, yəni 1-3 dərəcə temperaturda qaranlıqda saxlamaq lazımdır. Baharda isə kartofun zədələnmiş və göyərmiş yerləri təmizlənməli, qabıqsız bişirilməlidir. Göyərmiş kartofdan istifadə etmək, əslində, məsləhət deyil. İşdir, heyfiniz gəlsə, mütləq göyərmiş yerlərini yaxşıca təmizləyin.

## Fastfud insan orqanizmini tez qocaldır?

Missuri ştatının (ABŞ) alimləri müəyyən ediblər ki, fastfud təkcə piylənməyə səbəb olmur, həm də beynin fəaliyyətinə mənfi təsir göstərir. Tədqiqatlarda Amerika əsgərləri iştirak ediblər. Əsgərlərin bir qisminə çevik qidalanma restoranlarından standart menyu verilib. Onlar hamburgeri, hot-doqu və yüksək kalorili qazlı içkiləri əvvəlcə bəhbəhlə qarşılayıblar. Lakin bir neçə gündən sonra onlar ümumi nasazlıq və zəiflik hiss etməyə başlayıb və müəyyən müddətdən sonra müsli, kəsmik, meyvə-tərəvəz, yoğurt yeyən yoldaşlarına həsədlə baxıblar.  Bir il davam edən sınağın ilk aylarında əsgərlərin fiziki hazırlıq səviyyəsində və ruhi vəziyyətində fərqlər müşahidə olunub. Əsgərlərin 60 faizində ağız boşluğu və diş xəstəlikləri, dəmir çatışmazlığı, mədə pozğunluğu, zəiflik və halsızlıq müşahidə olunub.

## Bayramlardan sonra artıq çəkidən necə qurtulaq?

Bayram süfrələrində müxtəlif ləzzətli yeməklər ( salatlar,məzələr,bayram piroqları,tortlar və s.) yeməklə normadan artıq Kalori almış oluruq. Pəhriz həkimləri belə günlərdə böyük bir tort parçası yeyərkən əvvəlcə düşünməmizi məsləhət görürlər.Onların fikrincə əgər qadın belə bir böyük parça tort yeyibsə, 6 km yol getməsi lazımdır.

Ekspertlərə görə 75 kq çəkisi olan qadın 1 km yol gedərsə 58 Kalori əritmiş olur.Əgər nəzərə alsaq ki,bayram günlərində almış olunan kalori miqdarı yüksək olduğuna görə bir dilim tort qadınlara 360 Kalori aldırır.

Həmçinin alimlərin hesablamalarına görə Bayram süfrələrində insanlar orta hesabla 2000 Kalori alırlar.Onlardan yaxa qurtarmaq və əvvəlki formanı saxlamaq üçün həftədə 6-7 saat fiziki hərəkətlərlə məşğul olmaq lazımdır ki, bu da 34,5 km yolu getmək deməkdir.

## Alimlər açıqladı: Məhəbbət dərmandan daha yaxşı təsir edir...

Alimlər sensasiyalı kəşf sayılacaq bir fikir açıqlayıblar: məhəbbət hissi qan təzyiqinin azalmasına, depressiyadan xilas olmağa və yaraların sağalmasına kömək edir. Nyu-Yorkdakı (ABŞ) Stoni Bruk Universitetinin psixoloqu Artur Aron müxtəlif məhəbbət mərhələlərində olan insanların beynini öyrənib. O, məhəbbət hissinin insanın sağlamlığına təsiri mexanizmini anlamağa çalışıb və müəyyənləşdirib ki, məhəbbət həzz almağa və motivasiyaya təsir edən dopamin-neyrotransmitterin ayrılmasına səbəb olur. İnsan çoxlu pul udduqda və ya kokain qəbul etdikdə də eyni hal baş verir. Dostlarla və qohumlarla möhkəm əlaqələrin olması yaşamaq şanslarını 50 faiz artırır. Rədd cavabı alan insan xəstələnə bilər. Boşanma da insanın sağlamlığına mənfi təsir göstərir.


# SƏS

Son səhifə 21 iyun


## Azərbaycanın üç boksçusu Avropa çempionatında mərhələ adlayıb



Xarkovda keçirilən kişi boksçular arasında Avropa çempionatında səkkizdəbir final mərhələsinə start verilib. AZƏRTAC xəbər verir ki, iyunun 20-də Azərbaycan millisinin beş idmançısı rinqə çıxıb. Onlardan üçü qalib gələrək mərhələ adlamaqla yanaşı, dünya çempionatına lisenziya qazanıb.

Yığmamızın heyətində 49 kiloqram çəki dərəcəsində mübarizə aparan Məsud Yusifzadə Nazar Kurotçinlə (Ukrayna) üz-üzə gəlib. Görüş rəqibin 4:0 hesablı qələbəsi ilə yekunlaşıb. Həmçinin 64 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan boksçusu Lorenzo Sotomayor fransalı Vahid Hamblini 4:1 hesabı ilə məğlub edib. L.Sotomayor dörddəbir finalda polşalı Mateuş Polski ilə gücünü yoxlayacaq. İkiqat dünya çempionumuz Məhəmmədrəsul Məcidov (+91 kq) da yarışda ilk döyüşünü qələbə ilə başa vurub. O, belaruslu Aleksandr Kaleyevə 4:1 hesabı ilə qalib gəlib. M.Məcidov yarımfinala gedən yolda Fransa təmsilçisi Kamili Dini Aboudo Moindze ilə qarşılaşacaq. Çempionatda 52 kiloqram çəki dərəcəsində rinqə çıxan Elvin Məmişzadə italiyalı Manuel Fabritsio Kappai ilə döyüşüb. Qarşılaşmadan rəqib üstün ayrılıb - 5:0.

Çempionatın dördüncü günündə 69 kiloqram çəki dərəcəsində Pərviz Bağırov da ilk sınağına çıxıb. Bolqarıstanlı Simyon Çamovla üz-üzə gələn həmyerlimiz 4:1 hesabı ilə qələbə qazanıb. O, növbəti qarşılaşmada ukraynalı Yevgeni Barabanovla mübarizə aparacaq. Dörddəbir final döyüşləri iyunun 21-də keçiriləcək.

## "Azərbaycanda Formula-2 yarışında iştirak edəcəyim üçün çox məmnunam"




Formula-1 yarışının "Reno" komandasının ehtiyat pilotu Sergey Sirotkin Bakıda keçiriləcək Formula-2 mərhələsində iştirak edəcək. "SMP Racing" yürüş proqramının mətbuat açıqlamasında bildirilir ki, S.Sirotkin "ART GP" komandasının tərkibində britaniyalı Aleksander Albonu əvəz edəcək. A.Albon səhhəti ilə əlaqədar yarışlara qatıla bilməyəcək. S.Sirotkin Formula-2 mərhələsində iştirak edəcəyindən məmnun olduğunu bildirib: "Əvvəlcə Albona tezliklə sağalmağı arzu edirəm. Çox şadam ki, Formula-2-nin bolidinin sükanı arxasına qayıdıram. Bu seriyada iki il uğurla çıxış etmişəm. "ART GP" komandası mənə müraciət edəndə Azərbaycana getməyə məmnuniyyətlə razılıq verdim". Pilot, həmçinin "SMP Racing" proqramının təsisçisi Boris Rotenberqə və "Reno" komandasının rəhbəri Sirilyu Abirbula təşəkkür edib.

## Felipe Massa: Azərbaycana qayıtmağı səbirsizliklə gözləyirəm



Williams"ın pilotu, braziliyalı avtoyürüşçü, 2008-ci ildə "Formula-1" üzrə dünya çempionu Felipe Massa Bakıda növbəti mərhələ ilə bağlı gözləntilərindən danışıb. "Williams"ın mətbuat xidməti F.Massanın bu sözlərini sitat gətirib: "Mən Azərbaycan kimi gözəl bir ölkəyə və şəhərin düz mərkəzində yerləşən bu unikal trasa qayıtmağı səbirsizliklə gözləyirəm. Trasda 90 dərəcəlik döngələr boldur, əsas uzun düz yolda isə çox yüksək sürət götürmək mümkündür". Ötən il Bakıda biz finişə iki maşınla gəldik. Ümidvaram ki, bu dəfə Bakıda yaxşı nəticə əldə edəcəyik". Braziliyalının tərəf-müqabili Lens Stroll əlavə edib: "Daha əvvəl heç vaxt Bakıda olmamışam və ötən ilki yürüşü görməmişəm, çünki həmin vaxt başqa seriyadan olan məhələ yarışında çıxış edirdim. Hələlik nə gözləyəcəyimi bilmirəm. Mən simulyatorda işləməmişəm, çünki adətən bunu bilavasitə Qran-Priyə yollanmamışdan əvvəl edirəm. Eşitmişəm ki, çox gözəl yerdir və buna şəxsi təcrübəmdə əmin olmaq imkanını səbirsizliklə gözləyirəm. Məni daha bir yeni ölkə və tras gözləyir. Heç olmazsa, növbəti bir neçə yürüş artıq tanış treklərdə keçiriləcək".

## Ronaldo məhkəmə qarşısına çıxacaq



Vergidən yayınmaqda ittiham olunan "Real"ın futbolçusu Kriştiano Ronaldo hakim qarşısına çıxacaq. Qol.az-ın "Football Espana"ya istinadən yaydığı xəbərə görə, portuqaliyalı hücumçu iyulun 31-i məhkəmədə ifadə verəcək. Qeyd edək ki, K.Ronaldonun 2011-2014-cü illər ərzində 14.7 milyon avro vergidən yayındığı bildirilir.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**